Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

4
OKTYABR
2019-cu il

№ 177 (4075)

Qiyməti
40 qəpik

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# İLHAM ƏLİYEVLƏ GÖRÜŞDƏN QABAQ VLADİMİR PUTİNİN DÜNYAYA GURULTULU MESAJI - «...FİKİR MÜBADİLƏSİNƏ EHTİYACIMIZ VAR...»

■ səh. 2 ■

"Valday" klubunda İlham Əliyevə münasibət, İrəvan sammitində Paşinyana münasibət... fərqlər köklüdür
■ səh. 8 ■

Lavrovdan Qarabağ siyasi prosesini iflic etmiş Ermənistana birbaşa çağırış...
■ səh. 5 ■

Moskva-İrəvan münasibətlərinin sürətlə korlanması Qarabağ məsələsində özünü qabarıq göstərməyə başlayır...
■ səh. 9 ■

Paşinyanın "Qarabağ Ermənistandır" bəyanatı Lavrovu da açıq qıcıqlandırdı...
■ səh. 5 ■

Azərbaycan dünyada qızışan yeni ticarət savaşından qoruna biləcək - nəyin sayəsində...
■ səh. 10 ■

İsveçrə parlamentindən Azərbaycana yönəlik misilsiz qərar - vergi orqanları istənilən şəxsin hesabları barədə məlumat ala biləcək...
■ səh. 11 ■

Universitetlərdə və orta ixtisas məktəblərində artıq yükə çevrilmiş ixtisaslar...
■ səh. 15 ■

60 yaşdan sonra boşanmalar artır - maraqlı sosial proses...
■ səh. 14 ■



## Makron siyasi mühacir alverçilərinə qarşı qlobal mübarizə təklif etdi - mübarizənin ucu Azərbaycanda radikal partiyalara gəlib çıxa bilər

■ səh. 6 ■





Avrasiyanın dəmiryol qovşağı Ermənistanın bir addımlığından keçəcək, ancaq təcavüzkar ona həsrət qalacaq - Azərbaycan sayəsində...
■ səh. 7 ■

«Başqanlar debatı» Müsavat Partiyasının ən uğursuz layihələrindən birinə çevrilə bilər - Müsavatın iç məsələləri cəmiyyətin neçə faizi üçün maraqlı ola bilər...
■ səh. 11 ■

Azərbaycanda polisi ümumi qaralama kampaniyasından fərdi hədə-qorxulara keçid - Elşad Hacıyev nümunəsi...
■ səh. 3 ■

■ səh. 3 ■
ABŞ səfirinin müavini Lerikə səfər etdi - azı 3600 sakinə ilkin tibbi xidməti yaxşılaşdıran obyekt açıldı...



■ səh. 4 ■
Baş redaktorlar məşhur radio aparıcının vəziyyəti ilə bağlı ilk növbədə Fuad Muradovun qapısını döyməyi lazım bilir...



■ səh. 6 ■
Avrasiya İB sammitinin Paşinyan üçün rüsvayçı elementləri...



■ səh. 13 ■
Məktəbəqədər təhsildə mövcud problemlər nazir müavinini də dilə gətirdi...



■ səh. 12 ■
Azərbaycan İtaliya və Türkiyədən sonra dünya üçüncüsü - fındıq ixracında inqilabi nəticələr...



# İlham Əliyevlə görüşdən qabaq Vladimir Putinin dünyaya gurultulu mesajı - "... fikir mübadiləsinə ehtiyacımız var..."

**Oktyabrın 3-də Soçidə Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya Prezidenti Vladimir Putinlə görüşü olub. Məlumatlara görə, Prezident Vladimir Putin Prezident İlham Əliyevi qarşıladıqdan sonra dövlət başçıları birgə foto çəkdiriblər və ikitərəfli danışıqlar aparıblar.**

Rusiya Prezidenti Vladimir Putin Azərbaycan Prezidentini ürəkdən salamlayaraq deyib:

- Bu dəfə biz Soçidə beynəlxalq siyasi diskussiya klubu çərçivəsində görüşürük. Tədbir ilk dəfə Valdayda keçirildiyinə görə biz onu "Valday klubu" adlandırırıq.

Görüşümüzün əvvəlində qeyd etmək istərdim ki, Sizi görməyə çox şadam. Biz çoxdandır ki, görüşməmişik. Lakin şəxsi görüşlərimizdə, əlaqələrimizdə fasilə olmasına baxmayaraq, ölkələrimiz arasında münasibətlər uğurla inkişaf edir.

Ticari-iqtisadi əlaqələr möhkəmlənir. Keçən il əmtəə dövriyyəsinin həcmi 2,5 milyard dollar olub. Bu istiqamətdə yaxşı perspektivlərimiz var. Mən o planları nəzərdə tuturam ki, onların əsas müəllifi Azərbaycan Prezidentidir. Biz də öz tərəfimizdən, bu konkret, mənim fikrimcə iri layihələrin reallaşması üçün bizdən asılı olan hər şeyi edirik. Bunun üzərində hökumətlərarası komissiya işləyir və zənnimcə, kifayət qədər inamla işləyir.

Başqa istiqamətlər üzrə münasibətlərimizin vəziyyəti barədə də fikir mübadiləsinə ehtiyac var. Ümidvaram ki, bu gün biz bütün bunlara nail olacağıq. Ümid edirəm ki, Siz bu maraqlı ümumi diskussiyada iştirak edəcəksiniz.

Bu gün buraya gəldiyinizə görə çox sağ olun.

Azərbaycan Prezidenti İlham Əliyev isə cavab çıxışında deyib:

-Dəvətə görə çox sağ olun, Vladimir Vladimiroviç.

Valday diskussiya klubunun işində iştirak etmək mənim üçün böyük şərəfdir. Bu klub bu gün müasir dünya nizamının qlobal aktual məsələlərinin müzakirəsi üçün çox mühüm beynəlxalq məkandır. Əlbəttə ki, bu görüşə görə təşəkkür edirəm.




Sizin qeyd etdiyini kimi, biz müəyyən müddətdə, daha dəqiq desəm dörd aydır ki, görüşməmişik. Bizim əlaqələrin intensivliyini nəzərə alsaq, bu, yetərincə böyük müddətdir. Keçən il biz dörd dəfə görüşmüşdük. Bu görüşlər çox müsbət rol oynayır, strateji tərəfdaşların münasibətləri kimi səciyyələndirdiyimiz əlaqələrimizin inkişafına yaxşı təkan verir.

Ticari-iqtisadi sahədə müsbət dinamikanı da qeyd etmək istərdim. Əmtəə dövriyyəsi artır - keçən il də, bu il də. Bizdə olan məlumata görə, avqust ayına qədər artım 20 faizdən çox olub. Sizinlə bizim təsdiq etdiyimiz "Yol xəritələri"nin reallaşdırılması da əlbəttə, daha sıx qarşılıqlı fəaliyyətə, bütün sahələrdə inteqrasiyaya və əməkdaşlığa gətirib çıxaracaq.

Bizim üçün Rusiya ən mühüm tərəfdaş, dost, mehriban qonşudur. Biz bu münasibətləri çox qiymətləndiririk. Əminəm ki, bugünkü diskussiya əlaqələrimizin gələcək inkişafına yaxşı töhfə olacaq.

Dəvət üçün bir daha sağ olun - deyə Azərbaycan lideri cavab çıxışını yekunlaşdırıb.



## Nazir Vilayət Eyvazov oktyabrın 26-da Gəncədə 10 şəhər və rayondan olan şikayətçiləri qəbul edəcək

**Azərbaycan Respublikasının Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov oktyabrın 26-da Gəncə Şəhər Baş Polis İdarəsində Gəncə, Göygöl, Samux, Kəlbəcər, Şəmkir, Ağstafa, Tovuz, Gədəbəy, Qazax, Daşkəsən şəhər və rayonlarının sakinlərinin qəbulunu keçirəcək.**

Vətəndaşlar daxili işlər orqanlarının əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət etməklə qəbula yazıla bilərlər.

Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidir.

## Elçin Quliyev Qazaxda sərhəd döyüş məntəqəsində oldu - düşmən təxribatlarının qarşısının alınması barədə tapşırıqlar verdi

**2-3 oktyabrda Dövlət Sərhəd Xidmətinin (DSX) rəisi, general-polkovnik Elçin Quliyev Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Qazax" əlahiddə sərhəd diviziyasının Ermənistanla dövlət sərhədində yerləşən sərhəd döyüş məntəqələrinin xidməti-döyüş fəaliyyətini yoxlayıb.**



DSX-dən bakixeber.com-a verilən məlumata görə, son günlərdə xidməti ərazidəki əməliyyat şəraiti, Ermənistan Silahlı Qüvvələrinin bölmələri tərəfindən mütəmadi olaraq atəşkəs rejiminin pozulması, təxribat-diversiya cəhdləri və bununla əlaqədar görülən tədbirlər barədə vəzifəli şəxslərin məruzələri dinlənib, dövlət sərhədinin müdafiəsi və mühafizəsi üzrə xidməti fəaliyyətin təkmilləşdirilməsi, düşmənin təxribatlarının qarşısının qətiyyətlə alınması, şəxsi heyətin təhlükəsizliyinin daha da gücləndirilməsi barədə tapşırıqlar verilib.

# Mətbuat Şurasının Şikayətlər üzrə Komissiyası "Tac Mahal" MTK ilə sakinlərin mübahisəsinə müdaxilə etmiş media orqanının işinə baxdı...

**Mətbuat Şurasının Şikayətlər üzrə Komissiyasının növbəti iclası keçirilib. Toplantını açan komissiya sədri, Jurnalistlərin Həmkarlar İttifaqının rəhbəri Müşfiq Ələsgərli gündəlikdə duran məsələlər barədə məlumat verib.**

İclasda əvvəlcə "Tac Mahal" MTK-nın inşa etdiyi binanın sakinləri adından Ağalar Cavadov, Əsgər Hüseynov və Habil Məmmədovun "Gundemxeber.az" xəbər saytına qarşı şikayətinə baxılıb. Bəlli olub ki, bina sakinləri ilə MTK rəhbərliyi arasında yaranmış narazılığın ciddi əsasları var. Narazılıq yaradan səbəblərin aradan qaldırılması üçün müvafiq dövlət qurumlarına müraciət edilib və rəy alınıb. "Gundemxeber.az" xəbər saytı isə mövzu ilə bağlı hazırlayıb yayımladığı materialda birtərəfli davranıb. MTK sədrinin özünə bəraət qazandıran açıqlamalarını yayımlasa da, qarşı tərəfin - sakinlərin mövqeyinə əhəmiyyət verməyib. Komissiya üzvləri bildiriblər ki, "Gundemxeber.az" xəbər saytının adı MŞ-nın "qara siyahısı"nda olduğundan Şikayətlər üzrə Komissiya bu barədə əlavə rəy vermir. Bu baxımdan şikayətçilərə müvafiq orqanlara müraciət ünvanlamaq tövsiyə olunub.




Komissiya üzvləri Ucar rayon sakini Mirsəfa Musayevin bir sıra onlayn media qurumlarına qarşı şikayətini də araşdırıb. Musayev Ağdaş rayonunun bir qrup sakini adından imzalanan, Ağdaş RİH-dən şikayət motivli ərizəyə özünün adının şikayətçi qismində daxil edilməsindən narazıdır. Ucar rayon sakini olan şikayətçi ümumən Ağdaşla hər hansı bir bağlılığının olmadığını bildirib. KİV-lər isə dəqiqləşdirmə aparmadan onu da şikayətçi qismində təqdim ediblər.

İclasda iştirak edən KİV təmsilçiləri yol verilmiş yanlışın aradan qaldırılması üçün razılığa gəliblər. Bununla məsələ öz həllini tapıb.

# Polis mayorunu hədələyən sosial şəbəkə "canisinə" ağır maddə ilə cinayət işi açıldı...

**Daxili İşlər Nazirliyi və Baş Prokurorluğun Mətbuat xidmətlərinin birgə məlumatına görə, kütləvi informasiya vasitələrində Bakı şəhər Baş Polis İdarəsinin Mətbuat xidmətinin rəisi, polis mayoru Elşad Hacıyevin "facebook" sosial şəbəkəsində "Evez Vahidoviç" adlı sosial şəbəkə istifadəçisi tərəfindən ölümlə təhdid olunmasına dair informasiyalar yayılıb.**

Belə ki, "Evez Vahidoviç" adlı sosial şəbəkə istifadəçisi "facebook" sosial şəbəkəsində özünə məxsus səhifə vasitəsilə qeyd olunan polis əməkdaşının öldürülməsinə görə 10 min manat məbləğində pul mükafatı verəcəyini vəd edib.

Qeyd olunan hərəkətlərdə öldürməklə hədələmə əməlinin tərkib əlamətləri olduğundan, fakta görə Cinayət Məcəlləsinin 134-cü (öldürməklə hədələmə) maddəsi ilə cinayət işi başlanıb.

Cinayətin xarakterinə görə dövlət və cəmiyyətin mənafeyinə qəsd etməsini, işin xüsusiyyətləri, ibtidai araşdırmanın maraqları nəzərə alınmaqla cinayət təqibinin səmərəliliyini, eləcə də iş üzrə ibtidai istintaqın tam, hərtərəfli və obyektiv həyata keçirilməsini təmin etmək məqsədilə istintaqın aparılması Bakı Şəhər Prokurorluğunun İstintaq İdarəsinə tapşırılıb.

Hazırda iş üzrə zəruri və təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# Azərbaycanda polisi ümumi qaralama kampaniyasından fərdi hədə-qorxulara keçid - Elşad Hacıyev nümunəsi...

***Şəmsəddin Əliyev:** "Onların başlıca hədəfi budur ki, polisi cəmiyyətin, ictimaiyyətin dəstəyindən məhrum etsinlər"*

**Sosial şəbəkə hesabından Bakı Şəhər Baş Polis İdarəsinin Mətbuat xidmətinin rəhbəri, polis mayoru Elşad Hacıyevi ölümlə təhdid edən, onu qətlə yetirənə 10 000 manat verəcəyini vəd edən "Evez Vahidovic" adlı şəbəkə istifadəçisinin digər bütün paylaşımları də marağa səbəb olub.**



E.Hacıyevi ölümlə təhdid edən şəxs Rusiyanın Nijni Novqorod şəhərində yaşadığını qeyd edib. Profil fotosu əvəzinə 99 EB 660 dövlət nömrə nişanlı BMV markalı avtomobilin fotosunu qoyan istifadəçi avtomobilin ona aid olduğunu qeyd edib. Hətta paylaşımlarının birində 99 EB 660 nömrəli "BMV" ilə yanaşı, 90 DA 924 nömrəli "Nissan" avtomobilinin fotolarını paylaşaraq, avtomobillərini, cərimə edilməsinə baxmayaraq, hələ də rahatlıqla idarə etdiyini bildirib. Əlavə edib ki, qayda pozsa da, avtomobili cərimə meydançasına aparılmır.

Ola bilər ki, həmin şəxs tərəfindən profilində yerləşdirilən informasiyalar həqiqəti əks etdirməsin və məqsədli şəkildə hansısa yanlış məlumatlar qeyd edilsin. Ancaq ortada olan fakt budur ki, son aylar ərzində polisə qarşı müxtəlif səpkili qaralama kampaniyasının aparıldığının şahidi oluruq. Görünür, həmin kampaniyalar effekt vermədiyindən, indi də müəyyən dairələr fəallıq göstərən polisləri fərdi qaydada hədəfə alıb, onların ətrafında xof yaratmağa çalışırlar. Artıq baş verən virtual təhdidlə bağlı cinayət işi başlayıb. Daxili İşlər Nazirliyi və Baş Prokurorluq Bakı Şəhər Baş Polis İdarəsinin Mətbuat xidmətinin rəisi, polis mayoru Elşad Hacıyevin "Facebook" sosial şəbəkəsində "Evez Vahidoviç" adlı sosial şəbəkə istifadəçisi tərəfindən ölümlə təhdid olunması ilə bağlı yayılan məlumatlara münasibət bildirib.

Məlumatda qeyd olunur ki, "Evez Vahidoviç" adlı sosial şəbəkə istifadəçisi "Facebook" sosial şəbəkəsində özünə məxsus səhifə vasitəsilə qeyd olunan polis əməkdaşının öldürülməsinə görə 10 min manat məbləğində pul mükafatı verəcəyini vəd edib: "Qeyd olunan hərəkətlərdə öldürməklə hədələmə əməlinin tərkib əlamətləri olduğundan, fakta görə Cinayət Məcəlləsinin 134-cü (öldürməklə hədələmə) maddəsi ilə cinayət işi başlanıb.

Cinayətin xarakterinə görə dövlət və cəmiyyətin mənafeyinə qəsd etməsi, işin xüsusiyyətləri, ibtidai araşdırmanın maraqları nəzərə alınmaqla cinayət təqibinin səmərəliliyini, eləcə də iş üzrə ibtidai istintaqın tam, hərtərəfli və obyektiv həyata keçirilməsini təmin etmək məqsədilə istintaqın aparılması Bakı Şəhər Prokurorluğunun İstintaq İdarəsinə tapşırılıb.

Hazırda iş üzrə zəruri və təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri davam etdirilir".

Baş verən bu hadisə ilə bağlı müstəqil ekspertlər nə düşünürlər?

"Polisə Dəstək" İctimai Birliyinin sədri Şəmsəddin Əliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, burada müxtəlif maraqlar güdülə bilər: "İlkin olaraq polisin işinə psixoloji təsirin olması təəssüratı yaranır. Son zamanlar polisin sabitliyin qorunması və vətəndaşların təhlükəsizliyinin təmin edilməsi istiqamətində atdığı addımlar, nümayiş etdirdiyi prinsipiallıq çoxlarını qane etmir. Görünən budur ki, polis içdiyi sədaqət andına tam şəkildə əməl edir. Bu şərəfli xidmət kimə sərf etmirsə, onlar polisə qarşı aqressiv olurlar. Təbii ki, bu cür hallar polisi öz mövqeyindən çəkindirə bilməz. Polis müxtəlif kateqoriyalı şəxslər və qurumlarla mübarizə aparır. Söhbət qanunvericiliyi pozan elementlərdən gedir. Onların hər biri bu təhdidi edə bilər. Biz hələ ki, dəqiq fakta malik olmadan nəsə deyə bilmərik. Mən daha çox kriminal dairələrin əməlindən şübhələnirəm. Çünki onlara Azərbaycan polisinin ayıqsayıqlığı sərf etmir. Həmin dairələrin, xüsusilə də "qanuni oğru"ların həyatının sosial media və bəzi elektron KİV-də təbliğatı bu fəsadları yarada bilər.

Bir çox gənc həmin təbliğatın təsiri altına tez düşür. Bu səbəbdən də biz təbliğat resurslarında bu profilə xüsusi diqqət etməliyik. Onların başlıca hədəfi budur ki, polisi cəmiyyətin, ictimaiyyətin dəstəyindən məhrum etsinlər. Belə olan halda, polis cinayətkarlıqla mübarizədə onlarla üz-üzə qala bilər ki, bu da ictimaiyyət üçün arzuolunmayan bir haldır. Bu baxımdan da, KİV nümayəndələri cinayətkar aləmin təbliğinə həsr edilən materialları yazmaqdan imtina etməlidirlər".

***Məhəmmədəli QƏRİBLİ***

# ABŞ səfirinin müavini Lerikə səfər etdi - azı 3600 sakinə ilkin tibbi xidməti yaxşılaşdıran obyekt açıldı...

**2 oktyabr tarixində ABŞ səfirinin müavini Maykl Dikerson Lerik rayonunun Cəngəmiran kənd sakinləri ilə yeni tibb məntəqəsin layihəsinin başa çatmasını qeyd edib. Yeni məntəqə sayəsində Cəngəmiran və qonşu kəndlərin 3600-dən çox sakininin ilkin tibb xidmətlərinə əlçatanlığı yaxşılaşacaq.**



USAID-in Sosial-İqtisadi İnkişaf Fəaliyyəti (SEDA) adlı layihəsinin dəstəyi ilə Cəngəmiran sakinləri yerli hakimiyyət orqanları ilə birgə işləyərək köhnə tibb məntəqəsini əvəzləyən və icmanın səhiyyə ehtiyaclarını daha yaxşı ödəyə biləcək yeni tibb məntəqəsi inşa ediblər. Yeni tibb məntəqəsi iki həkim otağı, müayinə otağı və gözləmə dəhlizindən ibarətdir.

Səfir müavini Maykl Dikerson həmçinin əsas məşğuliyyətlərdən biri arıçılıq olan Lerikin Piran kəndində yerli sakinlərlə görüşüb. USAID-in SEDA adlı layihəsinin dəstəyi ilə Piran icması hal-hazırda bal emalı müəssisəsi inşa edir. Həmin müəssisə bazara çıxarılan yerli balın saxlanması və qablaşdırılmasını yaxşılaşdıracaq. Bu məntəqədən Piran və ətraf 40 kənddən olan 700-ə yaxın arıçı faydalana biləcək.

USAID-in Sosial-İqtisadi İnkişaf Fəaliyyəti layihəsi Şərq-Qərb İdarəçilik İnstitutu tərəfindən İqtisadiyyat nazirliyi ilə əməkdaşlıq şəklində icra edilir.

**2011-ci ildən SEDA icmaları 160 layihə icra ediblər ki, bunların sırasında yerli iqtisadiyyati dəstəkləyən, tibb məntəqələri, yollar, su və suvarma sistemləri, habelə yerli məktəb təmiri layihələri var.**

3 oktyabr tarixində ABŞ səfirinin müavini Maykl Dikerson Səlyanda yerləşən Amerika Mərkəzinə səfər edərək, mərkəzə İngilis dilinin təkmilləşdirilməsi və Birləşmiş Ştatlarda təhsil imkanlarının araşdırılması üçün gələn yerli tələbələrlə görüşüb. ABŞ Səfirliyi tərəfindən Azərbaycanın müxtəlif güşələrində yaradılmış Amerika Mərkəzləri gənclərə ABŞ-ın mədəniyyəti barədə məlumat verən, İngilis dili və sahibkarlıq sahələrində təlimlər təqdim edən bir mərkəz rolunu oynayır. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Dillər Universitetinin dəstəyi ilə fəaliyyət göstərən Amerika Mərkəzləri Bakı, Gəncə, Xaçmaz, Səlyan və Kürdəmirdə yerləşir. Hər təhsil ili 60 minə yaxın insan Amerika Mərkəzlərinə baş çəkir. 2018-ci ildə Səlyanda yerləşən Amerika Mərkəzinə 5 mindən çox insan gəlib.

# Baş redaktorlar məşhur radio aparıcının vəziyyəti ilə bağlı ilk növbədə Fuad Muradovun qapısını döyməyi lazım bilir...

***Şakir Ağayev:*** *"Əvvəla onun vəziyyəti ilə bağlı Diaspor Komitəsinin sədri Fuad Muradova məktubla müraciət etməliyik"*

***Vüqar Rəhimzadə:*** *"Mətbuat Şurası onunla bağlı Səhiyyə Nazirliyinə müraciət etməlidir"*

***Bəhruz Quliyev:*** *"Bütün baş redaktorlar Mətbuat Şurasına müraciət etməli və Mətbuat Şurası vasitəsilə onun vəziyyəti ölkə başçısına çatdırılmalıdır"*

**Krım vilayətinin Sevastopol şəhər radiosunun "Qobustan" proqramının aparıcısı, tanınmış jurnalist Həbib Əliyev bu gün özünün çox ağır günlərini yaşayır. Bir ilə yaxındır ki, Naxçıvan MR-in Babək rayonunun Cəhri kəndində, ata evində ağır xəstə yatan Həbib Əliyev ümidlə gözlərini qapıya dikib. Sağalmaz dərdinə çarə axtaran Həbib müəllim mübtəla olduğu xəstəlikdən gözlərinin işığını, dizlərinin taqətini itirib, nə görür, nə də yeriyə bilir.**

H.Əliyev kimdir? Onu uzaq Sevastopola hansı məqsəd aparıb, o, niyə bu şəhərdə fəaliyyət göstərən Azərbaycandilli (həmçinin də rus dilində - İ.S.) "Qobustan" proqramını yaradıb?

Əvvəlcə qeyd edək ki, H.Əliyevin müəllifi və aparıcısı olduğu "Qobustan" proqramı 1997-ci ilin martından fəaliyyət göstərməyə başyaıb, o, bu ağır duruma düşənə qədər həmin verilişin 250 sayı efirə gedib. Azərbaycan mədəniyyətini, incəsənətini, tarixini, ölkəmizin müasir inkişafını, eləcə də xalqımızın haqq işini yorulmadan təbliğ edən "Qobustan"ı yaradana qədər H.Əliyev Bakıda yaşayıb, burada müəllimlik fəaliyyəti ilə məşğul olub. Sevastopola getdikdən sonra isə belə bir proqram ərsəyə gətirmək niyyətinə düşüb. H.Əliyev bizimlə ötən söhbətlərində proqramın yaranma səbəblərini belə izah edirdi: "Mən 1996-cı ildə Bakının Xətai rayonunda müəllim işləyirdim. Ermənistanın Azərbaycana qarşı işğalçılıq planının reallaşdırılmasına başladığı 1988-ci ildən etibarən xalqımızın başına gətirilən müsibətlər, ərazilərimizin bir-birinin ardınca işğalı məni çox narahat edirdi. Hələ bu azmış kimi, cilddən-cildə girməkdə mahir olan ermənilər bizi borclu çıxarır, xarici ölkə mətbuatında ünvanımıza böhtanlar yağdırır, Azərbaycan xalqını vəhşi, qaniçən qəbilə kimi təqdim edirdilər. Ən çox təəssüf doğuran o idi ki, torpağı işğal edilən, hər şeyi ermənilər tərəfindən talan edilən, oğurlanan biz olduğumuz halda, xarici ölkə mətbuatı ermənilərin uydurmalarına inanıb azərbaycanlıları vəhşi adlandırırdı. Həmin dövrdə Ulu Öndər Heydər Əliyev xarici ölkələrdəki Azərbaycan diasporunun qarşısında ermənilərin bu fitnə-fəsadlarına qarşı yumruq kimi birləşməyi, Azərbaycan həqiqətlərini, xüsusilə ermənilərin zaman-zaman azərbaycanlılara qarşı törətdikləri soyqırımı və işğalçılıq siyasətini dünya ictimaiyyətinə olduğu kimi çatdırmağı əsas vəzifə kimi qoymuşdu.

Açığını deyim ki, Ümummilli Liderin bu çağırışına qədər xaricdəki Azərbaycan diasporunun nümayəndələri pərakəndə fəaliyyət göstərir, yaşadıqları ölkələrdə Azərbaycan mədəniyyətinin təbliği ilə məşğul olmurdular. Nəticədə tarixi düşmənlərimiz bu boşluqdan istifadə edərək hər yerdə azərbaycanlıları vəhşi, mədəniyyətsiz xalq kimi təqdim edirdilər. Belə bir vaxtda Ulu Öndərin çağırışına cavab olaraq mən də qarşıma belə bir məqsəd qoydum ki, bu prosesdə yaxından iştirak etməliyəm. İş elə gətirdi ki, həmin vaxt Krımın Sevastopol şəhərində yaşayan bir tanışımdan məktub aldım. O məni Sevastopolda yaşayan azərbaycanlı balaları üçün məktəb açmaq məqsədilə həmin şəhərə dəvət edirdi. 1996-cı ilin yanvarında bu dəvət əsasında Ukraynaya getdim. Burada yerli diasporumuzun nümayəndələri ilə birlikdə azərbaycanlı uşaqlar üçün məktəb açdıq. Sevastopolda yaşadığım ilk gündən yerli radionun proqramlarını ardıcıl izləyirdim. Şəhər radiosunda ermənilərin xüsusi proqramı yayımlanırdı. Onlar vaxtaşırı verilişlərində haqqımızda təxminən belə deyirdilər: "Azərbaycanlılar vəhşi xalqdır. Onlar Sumqayıtda bizi kabab edib yemişlər. İndi isə Qarabağda demokratiya qalib gəlib. Qarabağ erməniləri Azərbaycanın zülmündən azad olublar. Özlərinin azad, demokratik respublikalarını qurublar".

Bu düşüncələr içində radionun redaktorunun yanına getdim. Dedim ki, Bakıdan gəlmişəm, müəlliməm, ziyalıyam, sizə bir sualım var: mənə elə bir xalq göstərin ki, adamyeyən olsun? Redaktor cavabında dedi ki, dünyada belə bir xalq yoxdur. Dedim ki, əgər belədirsə, ermənilər azərbaycanlıları vəhşi, adamyeyən xalq kimi təqdim edir, siz isə susursunuz".

H.Əliyev qeyd edirdi ki, bu söhbətdən sonra radionun rəhbərliyi ona burada Azərbaycandilli proqram yaratmağı təklif edir, o bu təklifi qəbul edir və "Qobustan" efirə çıxmağa başlayır. "Qobustan" efirə çıxdıqdan sonra Sevastopol radiosunun efirindən Azərbaycan həqiqətləri yayılır, bütün Krım ictimaiyyəti, eləcə də radio proqramlarının yayıldığı ərazilərdəki insanlar Azərbaycanın haqq mübarizəsi ilə bağlı həqiqətləri öyrənirlər. H.Əliyev proqramın hər sayında Azərbaycan torpaqlarını işğal edən, xalqımıza qarşı soyqırım və deportasiya aktları törədən erməniləri ifşa etməyə başlayır. Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasında, eləcə də Azərbaycan ədəbiyyatının, mədəniyyətinin, elminin təbliğində mühüm rol oyayan, hazırda səhhətində yaranan ciddi problemlərdən dolayı xəstə yatan tanınmış jurnalist H.Əliyevin müalicəsi, ona maddi və mənəvi dəstək göstərilməsi ilə bağlı media rəhbərləri nə düşünürlər?







"Novoye vremya" qəzetinin baş redaktoru Şakir Ağayev "Bakı-Xəbər"ə bildirdi ki, həmkarımızın səhhətində yaranan ciddi problemin aradan qaldırılması ilə bağlı tədbirlərin görülməsi istiqamətində bütün media həmrəy olmalıdır: "Bu bizdən asılı məsələ olsa, təklif edərdim ki, bir həmkar olaraq bütün baş redaktorlar və mətbuatda az-çox imkanı olan insanlar bir araya gəlib bir hesab açsın, yaxud başqa addımlar atsın. Yəni öz tərəfimizdən belə köməklik edə bilərik. Amma bu köməklik yəqin ki, onu tam təmin edə bilməz. Bu insan Sevastopol radiosunda işləyib və Azərbaycanın haqq səsini yayıb. Azərbaycandan xaricdə yaşayıb onun haqq səsini dünyaya yayan adamlar ölkəmizin lobbiçiliyi ilə məşğul olan adamlardır. Xaricdə yaşayan azərbaycanlılarla bağlı Azərbaycanda Diaspor Komitəsi fəaliyyət göstərir. Mən təklif edərdim ki, bütün baş redaktorlar Diaspor Komitəsinin sədri Fuad Muradova, eyni zamanda da xaricdəki diaspor qurumların rəhbərlərinə bir müraciət hazırlayaq. Təbii ki, bütün bunların başında Azərbaycan Mətbuat Şurasının rəhbərliyi, hörmətli Əflatun Amaşov olmalıdır. Əflatun Amaşovun, Mətbuat Şurası üzvlərinin və baş redaktorların imzası ilə ölkə başçısına da müraciət etmək mümkündür. Hesab edirəm ki, bu müraciət müsbət cavablanar. Çünki indiyə qədər dövlət başçısına edilən heç bir müraciət cavabsız qalmayıb, hansısa formada köməklik göstərilib. Eyni zamanda da xaricdə yaşayan çoxlu sayda imkanlı azərbaycanlılar var ki, onlara da müraciət etməliyik. Əvvəla onun vəziyyəti ilə bağlı Diaspor Komitəsinin sədri Fuad Muradova məktubla müraciət etməliyik. Yəni H.Əliyev könüllü olaraq, heç kəsdən təmənna ummadan orada proqram yaradıb, Azərbaycanın haqq işini yayıb, təbliğ edib. Onun bu sahədə böyük xidmətləri olub. Hesab edirəm ki, hazırda vəziyyəti ağır olan Həbib müəllimə kömək etməyə Daspor Komitəsinin imkanları çatar. Şübhə etmirəm ki, Azərbaycanın böyük bir komitəsinin maliyyəsi buna imkan verər. H.Əliyevə dəstək göstərmək bir həmkar kimi bizim borcumuzdur. Digər tərəfdən də Azərbaycanın ölkədən kənarda təbliğində rolu olan insana dəstək bir həmkarlıq, bir insanlıq borcumuzdur. Bu bizim həm də ən böyük insanlıq vəzifəmizdir ki, belə dar gündə həmkarımızı yalqız buraxmayaq. Gələcəkdə belə işlə məşğul olan adamlar görsünlər ki, çətin vəziyyətdə onlar tək qalmırlar. Bu işləri görüb çətin duruma düşəndə ümid edə bilərlər ki, arxalarında dövlətin, həmkarlarının, başqa imkanı olan insanların köməyi var".

"İki sahil" qəzetinin baş readktoru Vüqar Rəhimzadə də H.Əliyevə dəstək olmağa hazır olduğunu bildirdi. V.Rəhimzadə hesab edir ki, H.Əliyevin vəziyyətilə bağlı Azərbaycan Mətbuat Şurası Səhiyyə Nazirliyinə müraciət etməlidir: "Mətbuat Şurası onunla bağlı Səhiyyə Nazirliyinə müraciət etməlidir. Əvvəlcə onun xəstəliyinin diaqnozu qoylmalıdır, ona uyğun da nə lazımdır edilməlidir. Bizə aid nə varsa, biz də Həbib müəllimə dəstək göstərə bilərik".

"Səs" qəzeti və "Səs" İnformasiya Agentliyinin rəhbəri Bəhruz Quliyev də həmkarımıza dəstək göstərməyə hazır olduğunu bildirdi. B.Quliyevin təkliflərinə gəlincə, o hesab edir ki, bununla bağlı ölkə başçısına müraciət etmək olar: "Azərbaycan jurnalistlərinin həyat, məişət, mənzil şəraitilə hər zaman Azərbaycan hakimiyyəti maraqlanıb və ən çətin anlarda belə jurnalistlərin, öz vətəndaşlarının yanında olub. H.Əliyevlə bağlı mənim təklifim budur ki, ilk növbədə, bütün baş redaktorlar Mətbuat Şurasına müraciət etməli və Mətbuat Şurası vasitəsilə onun vəziyyəti ölkə başçısına çatdırılmalıdır. Yeni Azərbaycan üçün dəyərli olan, ölkəmizin haqq işini beynəlxalq aləmdə təbliğ edən belə bir jurnalist ağır durumdadır və onun köməyə ehtiyacı var. Hesab edirəm ki, bunu edək. Eyni zamanda da, lazım olsa, baş redaktorlar olaraq da ona maddi dəstək göstərməliyik".

***İradə SARIYEVA***

**Rusiyanın xarici işlər naziri Sergey Lavrov "Valday" beynəlxalq diskussiya klubunun iclasında Dağlıq Qarabağ münaqişəsindən söz açıb. S.Lavrov bildirib ki, son dövrlər təmas xəttində sakitlikdir və insidentlər azalıb. Rusiya XİN başçısı qeyd edib ki, həlak olanların meyitləri mübadilə olunub: "Hazırda saxlanan şəxslərin də mübadiləsi üçün hazırlıq gedir. Çox az sayda olsa da, bu prosesə start verilib".**

# Lavrovdan Qarabağ siyasi prosesini iflic etmiş Ermənistana birbaşa çağırış...



Bölgədə vəziyyətin sakit olduğunu vurğulayan S.Lavrov onu da bildirib ki, buna baxmayaraq, siyasi proses dayanıb: "Bu prosesi yerindən tərpətmək alınmır. Əlaqələr var, amma nizamlama ilə bağlı dialoq hələlik bərpa olunmayıb. Amma mən bu halda irimiqyaslı əməliyyatların başlaması üçün hər hansı bir aşkar və ya qeyri-aşkar təhdid görmürəm". O qeyd edib ki, Rusiya Qarabağ cəbhəsində sabitliyin pozulmaması üçün əlindən gələni edəcək.

S.Lavrov ATƏT-in Minsk Qrupunun həmsədrlərinin (Rusiya, ABŞ, Fransa) yaxından işlədiyini də qeyd edib. O, Ermənistanın Baş naziri Nikol Paşinyanın "Qarabağ Ermənistandır" bəyanatını da tənqid edib: "Qarabağ Ermənistandır" demək siyasi prosesin yenidən başlaması üçün şəraitin yaradılmasına kömək etmir. Amma biz həmsədrlər sülh üzərində işləyirik. Biz istəyirik ki, dəfələrlə müzakirə olunan əsas prinsiplər əsasında həll yolunu tapaq".

Lavrovun bəyanatında diqqətçəkən maraqlı məqamlar var. O qeyd edir ki, Dağlıq Qarabağla bağlı prosesi yerindən tərpətmək alınmır, ancaq hərbi əməliyyatların başlanması üçün təhdid görmür. Hətta dolayısı ilə bildirir ki, Rusiya buna imkan verməz. Yəni, faktiki olaraq, Rusiya status-kvonun saxlanmasında maraqlı olduğunu bəyan edir. Əslində, bir həmsədr ölkənin belə mövqe sərgiləməsi absurd sayılmalıdır. Çünki Rusiya münaqişənin danışıqlar yolu ilə həllinin dalana dirəndiyini deyir və eyni zamanda, Azərbaycanın öz ərazilərini hərbi yolla azad etmək kimi haqqına imkan verməyəcəyini bəyan edir. Hər halda, Lavrovun dediklərinin ən ağıllı "tərcümə" variantı budur. Rusiyanın bu mövqeyini nə dərəcədə əsaslı saymaq olar?

Əslində, Rusiya xarici İşlər naziri S.Lavrov "Valday" klubunda Dağlıq Qarabağ münaqişəsi ilə bağlı işlətdiyi fikirlərdə bizim xeyrimizə olan məqamlar da çoxdur. Məsələn, Lavrov çıxışında Paşinyanın bir müddət əvvəl səsləndirdiyi "Qarabağ Ermənistandır" şüarına apardığı paralelə olduqca tutarlı cavab vermiş oldu. O, öz çıxışında "Qarabağ Ermənistandır" ifadəsi "Kosovo Albaniyadır" ifadəsinə bənzəyir və bu, danışıqlar prosesində müsbət atmosferin yaradılmasına kömək etmir" dedi. Məlumdur ki, Kreml Kosovonun müstəqilliyini qəbul etmir və bu bölgəni Serbiyanın ərazisi sayır. Ona görə də Qarabağın Kosovoya bənzədilməsi İrəvanın xeyrinə deyil. Əgər Kosovo məntiqindən yanaşsaq, Kreml nə Qarabağın Ermənistana birləşdirilməsinin, nə də müstəqilliyinin tərəfdarıdır. Ancaq Lavrovun başqa bir fikri bu müsbət mahiyyəti inkişaf etdirməyə əsas vermir. Lavrov, faktiki olaraq, problemin həllində güc tətbiqini istisna edir və buna Rusiyanın qarant olduğunu bəyan layır. Əgər biz Qarabağın Ermənistanın olmadığını qəbul ediriksə, onda bunun real yollarını göstərməliyik. Daha doğrusu, bunun düsturunu bizə Lavrov göstərməlidir. Bunun da iki mümkün yolu var: ya Ermənistan sülh yolu ilə kompromis varianta gəlir, ya da hərbi yol. Ermənistandan həmin addımı gözləməyə dəyməz. Çünki yürütdükləri siyasət bunun tam əksinədir. Güc tətbiqində isə Rusiya maraqlı olmadığını açıq ifadə edirsə, onda biz haqqımızı necə əldə etməliyik?

Paşinyanın hakimiyyətə gələn kimi Dağlıq Qarabağın danışıqlar prosesində tərəf kimi iştirakı iddiasını irəli sürüb uzun müddət bunda israr etdiyi bəllidir. Paşinyanın sonradan daha da irəli gedib "Qarabağ Ermənistandır" deməsi də Rusiyaya bağlı erməni siyasi dairələrində çox sərt tənqid olundu. Təbii ki, belə mövqedə olan bir ölkə ilə problemi silah gücü ilə həll etməkdən başqa yol qalmırsa, onda Lavrov niyə bunun da mümkünsüzlüyünü deyir? Lavrovun son çıxışında kifayət qədər təzadlı məqam olsa da, tərəzinin gözünün bir qədər Ermənistan səmtə əyildiyini aydın sezirik.

***Məhəmmədəli QƏRİBLİ***

**Soçidə keçirilən "Valday" müzakirə klubunun iclasında Rusiya xarici işlər naziri Sergey Lavrov Dağlıq Qarabağ münaqişəsinə toxunub. Onun sözlərinə görə, son zamanlar qoşunların təmas xəttində vəziyyət olduqca sakitdir, insidentlər azdır. Baş verən insidentlər də böyük deyil.**

# Paşinyanın "Qarabağ Ermənistandır" bəyanatı Lavrovu da açıq qıcıqlandırdı...

***Məhəmməd Əsədullazadə:*** *"Görünən odur ki, Rusiya Paşinyanın bu məsuliyyətsiz davranışlarından narahatdır"*




Həlak olanların meyitlərinin dəyişdirilməsi baş verib. Rusiya XİN başçısı əsirlərin dəyişdirilməsinə hazırlıq getdiyini vurğulayıb: "Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı hansısa proses gedir. ATƏT-in Minsk Qrupunun ABŞ, Fransa və Rusiyadan olan həmsədrləri çox sıx və dostcasına işləyirlər. Məncə, onlar bu il üç dəfə görüşüblər. Bu ilin aprel ayında mənim iştirakımla Azərbaycan və Ermənistan XİN başçılarının görüşü keçirilib. Deyərdim ki, bu regionda vəziyyət ötən illə müqayisədə daha sakitdir. Siyasi proses tormozlanıb. Hələlik prosesi tormozdan ayırmaq alınmır. Tərəflər olduqca ciddi bəyanatlar verir. O cümlədən, Dağlıq Qarabağın Ermənistanın olması bəyanatı səslənib. Necə ki, Albaniyanın Baş naziri Kosovonun Albaniyanın olduğunu bəyan edib. Əlbəttə ki, bu bəyanatlar münaqişələrin həllinə kömək etmir, siyasi prosesi tormozdan ayırmağa kömək etmir".

Görünən odur ki, Moskva ilk dəfə rəsmi səviyyədə "Qarabağ Ermənistandır" fikri ilə razılaşmadığını açıqladı. Düzdür, buna qədər Rusiya Xarici İşlər Nazirliyinin mətbuat katibi Mariya Zaxarova ünvan göstərmədən danışıqlar formatının dəyişdirilməsinin əleyhinə olduğunu vurğulayıb. Ancaq onun rəhbəri Sergey Lavrov "Valday" klubunun Yaxın Şərqə həsr olunan sessiyasında ünvanı gizlətmədi. Məlumdur ki, Kreml Kosovonun müstəqilliyini qəbul etmir və bu bölgəni Serbiyanın ərazisi sayır. Ona görə də Qarabağın Kosovoya bənzədilməsi İrəvanın xeyrinə deyil.

Bütövlükdə, Lavrovun məlum yanaşması nəyin göstəricisidir və Ermənistan üçün nə deməkdir?

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadənin sözlərinə görə, Ermənistan Baş naziri Nikol Paşinyanın Qarabağ siyasəti Minsk Qrupunun həmsədr dövlətləri tərəfindən birmənalı qarşılanmır: "Onun verdiyi bəyanatlar danışıqlara mane olmaq, vaxt uzatmaq və həll variantlarının üstündən xətt çəkməkdir. Məhz belə bir bəyanat Rusiyanın maraqlarını təhdid edir. Çünki Rusiya regionda müharibənin alovlanmasında maraqlı deyil. Lavrovun Paşinyanın məlum bəyanatlarına qarşı olması məhz Soçidə Azərbaycan və Rusiya prezidentlərinin görüşü kontekstində səsləndi. Bu, Ermənistana bir mesaj idi. Görünən odur ki, Rusiya da Paşinyanın bu məsuliyyətsiz davranışlarından narahatdır. Rusiya artıq münaqişənin həllinə belə zərbə vuran bəyanatlara qarşı olduğunu göstərməklə, bir növ, konfliktin həllinə yönəlik müəyyən yanaşmalar ortaya qoya bilər. Xüsusilə nəzərə almaq lazımdır ki, Cənubi Qafqazda geosiyasi şərtlər dəyişməyə doğru gedir. Burada mütləq şəkildə münaqişənin həlli labüdləşir. Məhz Lavrov bununla İrəvanı məsuliyyətli olmağa çağırır. Onsuz da Paşinyana Moskvada etimad etmirlər. Bundan əlavə, Kreml konfliktin həllində yeni şərtlərlə çıxış edə bilər.

*"Hesab edirəm ki, Lavrovun açıq mesajı yeni həll variantının olmasına işarədir"*

Hesab edirəm ki, Lavrovun açıq mesajı yeni həll variantının olmasına işarədir".

***Vidadi ORDAHALLI***

# Makron siyasi mühacir alverçilərinə qarşı qlobal mübarizə təklif etdi - mübarizənin ucu Azərbaycanda radikal partiyalara gəlib çıxa bilər

**Fransa Prezidenti Emmanuel Makron Avropa Şurası Parlament Assambleyasının (AŞPA) payız sessiyasında sualları cavablandırarkən mühacir statusu ilə alver edən şəbəkələr və onlarla mübarizənin zəruriliyindən danışıb. Onun sözlərinə görə, Avropada qaçqın statusu "arzusu"nu satan şəbəkələr fəaliyyət göstərir:**

"Onlar Avropa ölkələrində qaçqın statusu almaq üçün heç bir hüququ olmayan insanları aldadaraq qitəyə gəlmələrinə şərait yaradırlar. Biz belə qruplaşmalara qarşı tədbirlərimizi genişləndirməli və birgə mübarizə aparmalıyıq".

E.Makron deyib ki, mühacir axını ölkələrə ziyan vurur: "Qaçqın statusu almaq hüququ olmayan insanların ölkəmizə axını miqrantların çoxluğundan əziyyət çəkən sistemin fəaliyyətini zəiflədir. Beləliklə, həqiqətən, sığınacaq hüququna layiq olan insanların işinə baxılması yubanır. Hətta onların işinə baxılması bəzən 3-4 il çəkir. Belə hallar da onları yoxsulluğa məhkum edir".

Əslində, Makron çox ciddi olan bir probleme toxunub və mühacir alverilə mübarizə üçün bir əməkdaşlıq modeli təklif edib. Bu həm də o anlama gəlir ki, Makronun rəhbərlik etdiyi ölkə saxta mühacirlər sarıdan əziyyət çəkir. Fransa Prezidentinin səsləndirdiyi fikirlər bizim üçün çox tanışdır. Çünki zaman-zaman Azərbaycanda bu problemlər qaldırılıb və Avropa ölkələrinə müvafiq müraciətlər olunub. Hətta Azərbaycanın özündə belə bu məsələ açıq müzakirələrə çıxarılıb. Bir sıra müxalifət partiyalarının funksionerləri öz üzvləri tərəfindən saxta mühacir biznesi ilə məşğul olmaqda ittiham edilib. Ortaya konkret faktlar, yazışmalar, səs yazıları qoyulub. Azərbaycana qarşı söyüş kampaniyasında iştirak edən saxta mühacirlərin ən fəalları məhz Fransada oturum alıblar. Dəfələrlə Fransa hökuməti qarşısında onların ölkəyə ekstradisiya olunması ilə bağlı məsələ qaldırılsa da, buna əməl olunmayıb. Vidadi İsgəndərli, Elşad Abdullayev kimi dələduzlara qucaq açan Fransa bilməlidir ki, həmin adamlar ölkədə heç bir siyasi fəaliyyətlə məşğul olmayıblar. Çox yaxşı haldır ki, artıq Fransa da ən ali səviyyədə bu problemlə mübarizənin zəruriliyini vurğulayır və digər dövlətləri əməkdaşlığa çağırır. Aydındır ki, Azərbaycan məmnuniyyətlə bu əməkdaşlığa öz töhfəsini verə bilər. Ortada Fransanın ən yüksək səviyyədə siyasi iradəsi və Azərbaycanın əlində kifayət qədər sübut və dəlilləri varsa, onda bu araşdırmaların Azərbaycandakı siyasi partiyalara qədər gəlib çıxacağına şübhə yeri qalmır. Böyük ehtimalla, bu əməkdaşlıq çərçivəsində bir sıra saxta mühacirlərin Azərbaycana ekstradisiyası da reallaşa bilər. Yəqin ki, Azərbaycanın əlaqədar qurumları Makronun bu təklifini dəyərləndirib müəyyən addımlar atacaqlar. Bu, transmilli cinayətkarlığa aid olan bir fəaliyyət növüdür və terror təşkilatlarının mənsub olduğu qədər maliyyəsi ola bilir. Bu səbəbdən də yalnız dünya birliyinin birgə səyləri ilə deyilən istiqamətdə irəliləyişlərin əldə olunması mümkündür.




***Məhəmmədəli QƏRİBLİ***

# Avrasiya İB sammitinin Paşinyan üçün rüsvayçı elementləri...

**Bu günlərdə Ermənistanda Avrasiya İqtisadi İttifaqının sammiti baş tutdu. Sözügedən sammit həm Ermənistanın, həm də Ermənistanın Baş naziri Nikol Paşinyanın tam nüfuzdan düşdüyünü göstərdi. Tədbirin İrəvanda keçirilməsinə baxmayaraq, Baş nazir Nikol Paşinyanın Rusiya Prezidenti Vladimir Putinlə görüşü son anda baş tutdu.**

Ermənistan mediası da təsdiq edir ki, rəsmi İrəvan bu görüşün baş tutması üçün çox ciddi səylər göstərib, görüş üçün Rusiya tərəfi ilə dəfələrlə əlaqə yaradılıb və qısa da olsa görüşün olması xahişi edilib. Əslində, protokol qaydalarına görə, zirvə görüşünə ev sahibliyi edən ölkənin rəhbəri ayrı-ayrılıqda hər bir dövlət və hökumət başçısı ilə görüşür, bir çox hallarda bu görüş geniş tərkibdə keçirilir, ikitərəfli münasibətlər müzakirə olunur. Məsələn, ortada dəfələrlə bu kimi tədbirlərə evsahibliyi edən Azərbaycanın nümunəsi var. Belə tədbirlərdə Azərbaycan Prezidenti dövlət və hökumət başçıları ilə ayrı-ayrılıqda, geniş tərkibdə görüşlər keçirir.

Amma Putinlə Paşinyan arasında görüş günün sonunda, özü də sammit çərçivəsində baş tutub. İkinci görüş də ayaqüstü olub. Paşinyan qaçaraq özünü aeroporta yetirib ki, Putini yola salsın. Məhz orada ayaqüstü görüşləri olub. Bütün bunlar Ermənistana və onun Baş nazirinə olan münasibətin göstəricisi sayılmalıdır.

Politoloq Yeganə Hacıyeva qəzetimizə bildirdi ki, Avrasiya Samitinin Ermənistanda keçirilməsi göstərdi ki, həmin ölkənin heç bir hörməti yoxdur: "Özünü qərbpərəst göstərməyə çalışan və bütün jurnalist fəaliyyəti boyu Rusiya ilə yaxınlaşmaya qarşı çıxan Paşinyan gördünüz necə Putinin əlinə-ayağına düşmüşdü? Biabırçılıqdır ki, Putin onunla heç masa arxasında əyləşib görüş keçirmədi. Burada açıq görünür ki, Nikol Paşinyan olduqca riyakar siyasətçidir. Özünü nə qədər Qərbə meylli göstərsə də, əslində, başqa addımlar atır. Bu tədbirə də normal evsahibliyi edə bilmədi. Göründü ki, orada iştirak edən dövlət başçıları onu ciddi qəbul etmirlər. ABŞ-da olduğu kimi, burada da Paşinyan yalnız selfi şəkillər çəkməklə yadda qaldı. Heç tədbirin də məntiqi nəticəsi olmadı. Hesab etmək olar ki, bu, iştirakçılar üçün vaxt itkisindən başqa nəsə deyildi. Bu tədbir, eyni zamnda, bizimlə Ermənistan arasındakı fərqi açıq şəkildə üzə çıxardı. Bizdə keçirilən analoji formatda olan tədbirlərdə tamamilə fərqli mənzərənin şahidi oluruq. Burada həm də ölkə rəhbərlərinin şəxsi keyfiyyətləri və hörmətləri, qəbulolunma səviyyələri ortaya çıxır. Mən bu yaxınlarda beynəlxalq tədbirdə oldum. Orada keçirdiyim görüşlərdə də bildirdilər ki, heç kim Paşinyanı qərbpərəst kimi saymır. Bu tədbir həm də onun yönünün, əslində, hansı səmtə olması ilə bağlı aydın təsəvvür yaratmış oldu".



***Məhəmmədəli QƏRİBLİ***

**Ermənistanda keçirilən Avrasiya İqtisadi Birliyinin (AİB) sammitinin İrəvan üçün tam fiasko ilə nəticələnməsi özünü kifayət qədər qabarıq şəkildə büruzə verməkdədir. Məsələ burasındadır ki, iqtisadi mahiyyətli bu qurumda iştirakçılıqla Ermənistan düşdüyü ağır vəziyyətdən xilas olmağı düşünsə də, proseslər tamamilə bunun əksi istiqamətdə cərəyan etməkdədir.**

# Avrasiyanın dəmiryol qovşağı Ermənistanın bir addımlığından keçəcək, ancaq təcavüzkar ona həsrət qalacaq - Azərbaycan sayəsində...

*Avrasiya İqtisadi Birliyinin İrəvan sammiti Ermənistanın Şimal-Cənub ümidlərinə son qoydu*




Hazırda İrəvanın əsas niyyətlərindən biri Rusiya və İranla əməkdaşlığı dərinləşdirmək, xüsusən də nəqldiyyat əlaqələrinin inkiaşfına nail olmaqdır. Amma Avrasiya İqtisadi Birliyinin sammitində səslənən fikirlərdən belə bəlli oldu ki, Rusiya və İran kimi ölkələri daha çox Azərbaycan üzərindən keçən nəqliyyat dəhlizləri maraqlandırır. Ermənistan bu mənada tamam arxa plandadır. Elə İrəvanda keçirilən sammitdə İran prezidenti Həsən Ruhaninin mövqeyi də bunu təsdiq edir. Belə ki, Həsən Ruhani çıxışında Birliyə üzv olan dövlətləri İranın tranzit imkanlarından faydalanmağa çağırıb. İran prezidenti bildirib ki, İranın körfəz, Oman və Xəzər dənizləri sahillərində böyük infrastruktura malik limanları var. O qeyd edib ki, həmin dənizlərin sahillərindəki Astara, Əmirabad, Ənzəli, Bəndər-Abbas, İmam Xomeyni, Çabahar limanları istənilən həcmdə yükləri qəbul edib yola salmaq imkanına malikdir. Bu limanlar isə məhz "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin formalaşmasında mühüm rol oynayır.

Ruhaninin çıxışında maraq doğuran məqam ondan ibarətdir ki, adıçəkilən limanlara daxil olan yüklər "Şimal-Cənub" dəhlizi ilə daşınacaq. Cənub-Şərqi Asiya ölkələri Rusiya və Avropa ilə yük mübadiləsini və idxal-ixrac əməliyyatlarını məhz bu limanlar vasitəsilə həyata keçirəcəklər. Cənub-Şərqi Asiya ölkələrindən İranın Çabahar, Bəndər-Abbas, İmam Xomeyni limanlarına daxil olan yüklər Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolu vasitəsilə tranzit olaraq Azərbaycan ərazisindən keçməklə Rusiyaya, oradan isə Qərbi Avropaya daşınacaq. Məlum olduğu kimi, Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolunun Qəzvin-Rəşt hissəsi artıq istismara verilib. Yolun Rəşt-Astara hissəsində işlər davam edir. İran Astarası ilə Azərbaycan Astarasını birləşdirən 8 kilometrlik dəmir yolu da iki ildir ki, fəaliyyətə başlayıb və bu yolla İran Rusiya ilə ticarət əlaqələrini davam etdirir. İran prezidentinin bu çıxışında irəli sürdüyü təklif öz ölkəsi ilə bərabər Azərbaycanın da xeyrinədir. Bunlar həm də o deməkdir ki, Avrasiya İqtisadi Birliyinin son tədbiri də Ermənistan üçün heç bir əhəmiyyət kəsb etməyəcək. Hətta əksinə, İran Ermənistanda dolayı yolla olsa da bəyan edir ki, Azərbaycan üzərindən keçən dəhlizlərlə yükdaşımaların artımını istəyir. Xatırladaq ki, Ermənistan, bölgədə reallaşan digər beynəlxalq iqtisadi layihələrdə olduğu kimi, "Şimal-Cənub" dəhlizindən də kənarda qalıb.

Hazırda Azərbaycan "Şimal-Cənub" dəhlizinin tam olaraq formalaşmasında fəallıq göstərir. Digər tərəfdən, İran kimi Rusiya da tranzit məsələsində Ermənistana yox, Azərbaycana xüsusi maraq göstərir. Elə bundan irəli gəlir ki, Azərbaycanın dəmir yollarının yaxın tezlikdə "Transsibir" magistralı ilə birləşməsi də gözlənilir. Artıq bu xüsusda Moskvada Azərbaycan və Rusiya dəmir yolları idarələrinin nümayəndələri arasında müzakirə aparılıb. Müzakirələrdə Rusiya ərazisindən keçməklə Çin, Yaponiya və Koreyadan yüklərin "Transsibir" magistralı ilə Azərbaycana, buradan isə Bakı-Tiflis-Qars dəmir yolu xəttilə Türkiyə istiqamətində daşınması məsələsi gündəmə gəlib. Məhz bu vəziyyət o deməkdir ki, Azərbaycan dəmir yolları dünya miqyasında böyük bir şəbəkənin mühüm halqalarından birinə çevrilir. Qeyd edək ki, "Transsibir" magistralı dünyanın ən uzun dəmir yoludur. 9300 kilometrə yaxın bu yol Moskvanı Rusianın Uzaq Şərqi ilə birləşdirir və son məntəqəsi Vladivostok şəhəridir. "Rusiya Dəmir Yolları" ASC-nin baş direktorunun birinci müavini Aleksandr Mişarin də bu günlərdə belə bir açıqlama ilə çıxış etmişdi ki, Rusiya Azərbaycan və Gürcüstandan keçməklə Türkiyəyə, oradan da Avropaya çatdırılma məqsədilə yük daşımalarının, o cümlədən konteyner daşımalarının bir hissəsini "Transsibir" dəmir yolu xəttinə keçirməyi planlaşdırır: "Bu layihə reallaşdırılır. O, Azərbaycan, Gürcüstan və Türkiyə arasındakı razılığa əsasən həyata keçirilir. Söhbət axının bir hissəsini "Transsibir" magistralı üzrə Azərbaycan və Gürcüstandan keçməklə Türkiyəyə, oradan da Avropaya yönəltməyə imkan verəcək iki müxtəlif enlikli dəmir yolu xəttindən gedir".

Ekspertlər bildirir ki, "Transsibir" xətti ilə gələn yüklərin sonradan Bakı-Tiflis-Qarsla birləşməsi olduqca mühüm əhəmiyyət kəsb edir. Rusiyalı ekspert Aleksandr Karavayev bu məsələyə ölkəsində artıq xüsusi maraq göstərildiyini bildirir: "Faktiki olaraq, Rusiya Bakı-Tiflis-Qars layihəsinə artıq qoşulub. Bu ilin mayında Ankarada Rusiya, Türkiyə və Azərbaycanın dəmir yollarının rəhbərləri üçtərəfli memorandum imzaladılar. Məhz həmin vaxt "Rusiya Dəmir Yolları"nın başçısı Oleq Belozyorov Bakı-Tiflis-Qars dəhlizi üzrə "Transsibir" magistralı ilə Çin, Cənubi Koreya və digər Asiya-Sakit okeanı ölkələrindən gələn yüklərin gedəcəyini bəyan etdi.

Söhbət iki yük axınından gedir ki, bura ilk olaraq, Türkiyə idxalçılarına çatacaq, əsas etbarı ilə Rusiya, (kömür, ağac, buğda) bir qisim də Çin malları daxildir. Rusiya ilə Türkiyə arasında dənizlə birbaşa yolla illik yük axını 6 milyon ton, avtomobil və Avropanın tranzit dəmir yol magistralları (Bolqarıstan üzərindən) ilə 20 milyon ton səviyyəsindədir. "Rusiya Dəmir Yolları" bu yük axınlarını öz nəzarətinə götürərək yükləri birbaşa Bakı-Tiflis-Qars vasitəsilə göndərməyi planlaşdırır.

Digər tərəfdən, söhbət Cənub və Asiya-Sakit Okeanı regionunun idxalçılarına yollanan Rusiya yüklərindən gedir. Belə ki, Rusiyanın Asiya-Sakit okean regionundan yük dövriyyəsinin 50%-i "Transsibir" in payına düşür. Bu mənada, Bakı-Tiflis-Qars Rusiyanın Uzaq Şərqdəki kömür terminallarındakı yüksək səviyyəli mövsümi yüklülük problemini və Qara dənizdə buğda terminallarında (Novorosiyskdə 3 terminal, Qafqaz və Taman limanlarının hərəsində 1 terminal) yükləmə güclərinin defisitini həll edə bilər. "Rusiya Dəmir Yolları" Azərbaycan üzərindən Türkiyə və İrana tranziti əsas yüklənmənin azaldılmasının bir variantı kimi nəzərdən keçirir. Moskva və Bakı tərəfdaşlıq məramlarını artıq qeydə alıb. Belə ki, tərəflər buğda və taxta-şalban daşınması üzrə birgə müəssisə yaradıblar. O, regionda buğda məhsullarının daşınması üzrə vaqon parkına malik olan yeganə şirkətdir. Azərbaycan Rusiya buğdası və taxta-şalbanı üçün tranzit ölkəyə çevrilir ki, bu məqamda da onun büdcəsi üçün əhəmiyyətli maraq görülməkdədir. Moskva getdikcə Azərbaycan nəqliyyat habının həm Bakı-Tiflis-Qars, həm də "Şimal-Cənub" dəhlizi istiqamətində genişləndirilməsi üzrə səylərini artıracaq".

Bütün bunlar Azərbaycanın tranzit əhəmiyytinin Rusiya üçün artdığını bir daha təsdiq edir və belə vəziyyət Ermənistanı tam şəkildə arxa plan atır. Elə bu səbəbdən hesab edilir ki, İran və Rusiyanın gedişləri nəticəsində Avrasiya İqtisadi Birliyinin İrəvan sammiti Ermənistan üçün tam fiasko ilə nəticələnib.

***Nahid SALAYEV***

# "Valday" klubunda İlham Əliyevə münasibət, İrəvan sammitində Paşinyana münasibət... fərqlər köklüdür

## *Fikrət Sadıqov: "Bütün hallarda, İlham Əliyevin nüfuzu Paşinyanla müqayisəolunmaz dərəcədə böyükdür"*

**Ermənistanın əksər sahələrdə Azərbaycandan geridə qalması danılmaz reallıqdır. Kimin nə deməsindən asılı olmayaraq, reallıq ortadadır. O cümlədən, Azərbaycan və Ermənistan dövlət başçılarının nüfuzunu da müqayisə etdikdə, məlum qarşı tərəfin nüfuzu çox aşağıdır.**

Bu günlərdə Ermənistan Avrasiya İqtisadi İttifaqına evsahibliyi etdi. Həmçinin, Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunun iclası başlayıb. "Valday" klubunda İlham Əliyevə olan münasibəti İrəvan sammitində Paşinyana olan münasibətlə müqayisə etdikdə arada nə qədər böyük fərqin olması aydınlaşır.

Ermənistan AİI-nin tədbirinə evsahibliyi etsə də, üzv ölkələrin rəhbərləri Baş nazir Nikol Paşinyana saymazyana münasibət bəslədilər. Bu, müxtəlif formalarda özünü büruzə verdi. Məsələn, Belarus Prezidenti Aleksandr Lukaşenko Paşinyanla görüşündə çəkinmədən Azərbaycanın mənafeyini müdafiə etdi, Prezident İlham Əliyevlə olan yüksək münasibətləri qeyd etdi. Bundan başqa, Rusiya Prezidenti Vladimir Putin Paşinyanla sanki ayaqüstü görüş keçirdi. AİI-nin üzvü olan bir sıra dövlətlərin başçıları, ümumiyyətlə, Paşinyanla ikitərəfli görüş keçirmədilər. Əslində, protokol qaydalarına görə, zirvə görüşünü təşkil edən ölkənin rəhbəri ayrı-ayrılıqda hər bir dövlət və hökumət başçısı ilə görüşür. Bir çox hallarda bu görüş geniş tərkibdə keçirilir, ikitərəfli münasibətlər müzakirə olunur. İrəvanda Paşinyan tədbir boyu hər fürsətdə özünü aşağılayaraq, harada gəldi dövlət başçıları ilə selfi çəkdirdi.

Başqa bir tərəfdən, Paşinyan istədi belə bir rəy yaratsın ki, guya toplantı ona görə İrəvanda keçirilib. Halbuki, təşkilatın toplantısı, sadəcə, növbəlilik prinsipinə görə orada keçirilib və bunun Paşinyanla əlaqəsi yoxdur. Toplantıdan dərhal sonra parlamentdə çıxış edən Paşinyan tədbirin "uğurlu nəticələrindən" və rusiyalı həmkarı Vladimir Putinlə görüşdən ağız dolusu danışıb. Ancaq deputatlardan birinin "Rusiya Ermənistana satdığı qazın qiymətini bahalaşdırmayacaq ki" sadə sualına cavab verə bilməyib. Ən nəhayət, Paşinyanın nüfuzu olsaydı, Putin onun əzəli düşməni olan Robert Köçəryanın həyat yoldaşı ilə görüşməzdi. Yəni Paşinyanla olan münasibətləri nəzərə alardı.

Ancaq gəlin "Valday" Beynəlxalq Diskussiya Klubunun iclasına dəvət olunan Prezident İlham Əliyevə olan böyük hörmətə baxaq. Nəinki bu tədbirdə, digər beynəlxalq görüşlərdə bir sıra dövlət başçıları Prezident İlham Əliyevlə ikitərəfli görüşə xüsusi səy göstərirlər. Eyni zamanda, dəfələrlə bu kimi tədbirlərə evsahibliyi edən Azərbaycanda ölkə başçısı dövlət və hökumət başçıları ilə ayrı-ayrılıqda, geniş tərkibdə görüşlər keçirib. Ölkədən kənarda keçirilən tədbirlərdə iştirak edən dövlət başçıları, Nobel mükafatçılarının hər biri çalışır ki, Azərbaycan Prezidenti ilə görüşsün. Soçidə Prezident İlham Əliyevin sözügedən tədbir çərçivəsində çoxsaylı yüksək vəzifəli dövlət xadimi ilə görüşləri planlaşdırılır. Ümumən, Prezident İlham Əliyevin səsləndirdiyi fikirlər beynəlxalq aləmdə ciddi rezonans doğurur. AİI-də, KTMT-də təmsil olunan dövlətlərin başçıları Prezident İlham Əliyevə daha çox hörmət edirlər. Ermənistanın həmin qurumda təmsil olunması nəyisə dəyişə bilmir. O baxımdan, Prezident İlham Əliyevin Ermənistan Baş naziri Nikol Paşinyandan olduqca böyük nüfuza malik olması ortadadır.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən keçmiş diplomat, politoloq Fikrət Sadıqovun sözlərinə görə, Azərbaycan Prezidentinin dünyada və regionda olan böyük nüfuzu danılmaz reallıqdır: "Ermənistanın bu məsələdə bizimlə hansısa rəqabətindən söhbət belə gedə bilməz. İrəvanda və Soçidə keçirilən görüş bunu bir daha sübut etdi. AİI-nin sammiti olmasaydı, Putin heç İrəvana səfər etməzdi. Çünki Putin Paşinyana görə ora getmədi. Putin AİI-nin iclasında iştirak etmək və digər dövlət başçıları ilə görüşmək üçün ora getdi. Paşinyan isə İrəvanda keçirilən tədbirdə əksər vaxtını selfi çəkməklə keçirdi. Avtobuslarda, küçələrdə selfi çəkirdi. Sanki bu adam siyasətçi yox, fotoqrafdır. Bu da təbii ki, gülünc təsir bağışladı. Ölkənin Baş naziri özünü elə aparırsa, o zaman belə dövlətin gələcəyi yoxdur. Bütün hallarda, İlham Əliyevin nüfuzu Paşinyanla müqayisəolunmaz dərəcədə böyükdür. Məsələ ondadır ki, ölkə başçısı bütün beynəlxalq tədbirlərə dəvət olunmaqla yanaşı, həmin tədbirlərdə Prezidentə böyük diqqət göstərilir. Sözügedən tədbirlər çərçivəsində bir sıra ikitərəfli görüşlər keçirilir. Prezident İlham Əliyevin Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunun iclasına dəvət edilməsi, orada bir sıra dövlət başçılarının olması ölkə başçısının nüfuzunun göstəricisidir.

**Bu onu göstərir ki, Prezident İlham Əliyev dünya siyasi arenasında çox böyük hörmətə malikdir. Bu həm də Azərbaycanın beynəlxalq arenadakı mövqelərini daha da gücləndirir. Azərbaycana olan yüksək münasibətin göstəricisidir. Azərbaycan artıq bir sıra dövlətlər arasında aparıcı bir oyunçuya çevrilib. Ona görə də Prezident İlham Əliyevin istənilən beynəlxalq tədbirdə iştirakı böyük önəm kəsb edir".**




*"Ölkə başçısı bütün beynəlxalq tədbirlərə dəvət olunmaqla yanaşı..."*

*Vidadi*
**ORDAHALLI**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Moskva-İrəvan münasibətlərinin sürətlə korlanması Qarabağ məsələsində özünü qabarıq göstərməyə başlayır...

**Ermənistanda mövcud hakimiyyətin xarici siyasətdə yol verdiyi çoxsaylı nöqsanlar bu gün İrəvanın bir çox dövlətlərlə münasibətlərində ciddi problemlərin yaranması ilə müşayiət olunur. Məsələn, artıq faktdır ki, Ermənistanın Rusiya, ABŞ, İran, Avropa Birliyi ilə münasibətləri il yarım əvvəl olduğundan əsaslı surətdə fərqlənir və İrəvan üçün ciddi dərəcədə pisləşməyə doğru gedir.**

Bütün bunların Dağlıq Qarabağ münaqişəsinə hansı formada təsir göstərəcəyi isə indi ekspert mərkəzlərinin xüsusi diqqətində yer alan məsələyə çevrilib.

Hazırda müşahidə edilən məqamlardan biri də budur ki, Ermənistanın, xüsusən də baş nazir Nikol Paşinyanın siyasətdə yol verdiyi naşılıqlar, xətalar işğalçı ölkəni əsas himayədarlarından, o cümlədən Rusiyadan məhrum edib. Rusiyanın Ermənistan münasibətlərində getdikcə daha çox korrektələr etməsi də elə bundan qaynaqlanır. Qeyd edilənlərin real təzahürü Rusiya prezidenti Vladimir Putinin üç illik fasilədən sonra Ermənistana səfəri zamanı özünü qabarıq şəkildə büruzə verdi. Türkiyənin "Haber Global" portalı qeyd edir ki, Putinin Avrasiya İqtisadi Birliyinin iclasında iştirak etmək üçün getdiyi Ermənistana səfəri başdan sona qədər gərgin ab-havada keçib. Bildirilir ik, prezidentin təyyarəsi iclasa sadəcə üç dəqiqə qalmış İrəvana enib, bütün ziyarət müddəti isə sadəcə bir neçə saatdan ibarət olub. Səfərdən əvvəl Paşinyan hökuməti tərəfindən həbs edilən Ermənistanın eks-prezidenti Robert Köçəryanın sərbəst buraxılması tələbi yerinə yetirilməyən Putinin buna rəğmən eks-prezidentin arvadı ilə Rusiya səfirliyində görüşməsi də diqqətçəkən məqamlardan biri olub. O da vurğulanır ki, iki ölkə arasındakı gərginliyin səbəblərindən biri də təbii qazla əlaqəlidir. Belə ki, Rusiya Ermənistana satdığı qazın qiymətini ötən il artırsa da, yerli mətbuata görə, növbəti 30%-lik artım da "yoldadır". Rusiya və Ermənistan arasında son bir neçə ildir davam edən gərginliyi şərh edən beynəlxalq politoloqlar son səfərdə bu gərginliyin çox hiss edildiyini və Putinin məsafəli davranışlarının da bunu bir daha sübut etdiyini bildirib. Portal yazır ki, Putin bir neçə saat davam edən İrəvan ziyarətinin ardından Paşinyan tərəfindən təyyarəyə qədər ötürülüb. Ayrılarkən Paşinyanın onu qucaqlamasına baxmayaraq, Rusiya prezidentinin soyuq davranışları da diqqətlərdən yayınmayıb.

Ekspertlər bütün bu qeyd edilənləri təsadüfi saymır. Belə ki, Nikol Paşinyan bir yandan hakimiyyətdə olduğu dövrdə heç zaman ölkəsinə rəsmi səfərə gəlməyən Vladimir Putinlə sıx münasibətlərinin olduğu təəssüratını yaratmaq istəyir. Digər tərəfdən isə, öz komandasına anti-Rusiya siyasətçilərini toplayıb. Onun komandasında nazirlərin mütləq əksəriyyəti "Sorosun uşaqları" adlandırılan siyasətçilərdir ki, onlar da birbaşa Amerika ilə bağlı şəxslərdir. Eyni zamanda, Paşinyan ABŞ və Qərblə əməkdaşlığı Rusiyanın maraqlarına zidd müstəvidə inkişaf etdirməkdə də maraqlıdır və belə vəziyyət Moskva tərəfindən heç də xoş qarşılanmır. Elə bu səbəbdən Putin Paşinyana onun istədiyi diqqəti göstərmədi. Avrasiya İqtisadi Birliyinin İrəvanda baş tutan növbəti sessiyası fonunda bu xüsusda fikirlərini bölüşən politoloq, sabiq dövlət müşaviri Qabil Hüseynli də bildirir ki, Nikol Paşinyanın baş nazir seçilməsindən bəri ilk dəfə Ermənistana rəsmi səfər edən Vladimir Putinin ona münasibəti çox saymazyana oldu: "Ayaqüstü görüşün keçirilməsi də buna bariz sübutdur. Ayaqüstü görüş zamanı hər hansı fundamental məsələnin müzakirəsini edib, müəyyən nəticələrə gəlmək mümkünsüzdür. Belə görüşlər, ən yaxşı halda, nəzakət xatirinə keçirilir. Çünki ev sahibliyini Ermənistan edirdi və bu ölkənin baş naziri kimi Paşinyan Avrasiya İqtisadi Birliyinin aparıcı gücü olan Rusiyanın prezidentindən, heç olmasa, iltifat xatirinə salam-əleyk almalı idi". Bundan artıq Paşinyan Putindən heç nə ala bilmədi. Görünən budur ki, Paşinyanın Rusiyaya qarşı yol verdiyi xətaları Putin ona bağışlamaq niyyətində deyil. Yeri gəlmişkən qeyd edək ki, Putinin narazılığını şərtləndirən səbəblərdən biri elə Dağlıq Qarabağ münaqişəsi ilə bağlıdır. Çünki istənilən halda, Rusiya prezidenti onun fərqindədir ki, Paşinyanın hərəkətləri münaqişənin həlli imkanlarını çətinləşdirir. Belə ki, Paşinyan "Dağlıq Qarabağ Ermənistandır" deməklə bütün danışıqlar prosesinin üzərindən xətt çəkmiş olur. Nəzərə alsaq ki, Rusiya Minsk Qrupu həmsədr ölkələrindən biridir, belə olan vəziyyətdə Paşinyanın davranışı Rusiyanın vasitəçilik missiyasına daban-dabana ziddir. Bunu isə Putin və ümumilikdə Rusiya siyasi hakimiyyəti qəbul etmir. Rusiya xarici işlər naziri Sergey Lavrovun son açıqlamaları da qeyd edilənləri təsdiq edir. Qeyd edək ki, Soçidə "Valday" diskussiya klubunun iclasında Dağlıq Qarabağ münaqişəsi ətrafındakı vəziyyət barədə danışarkən Sergey Lavrov Ermənistanın baş nazirini möhkəm pərt edə biləcək bəyanat verib. O, Nikol Paşinyanın avqustun 5-də Xankəndidə səsləndirdiyi "Qarabağ Ermənistandır, vəssalam" bəyanatının danışıqlar prosesini əngəllədiyini bildirib. Buna qədər isə Rusiya Xarici İşlər Nazirliyinin mətbuat katibi Mariya Zaxarova eyni mövqe sərgiləmişdi. O, Paşinyana xitabən bildirmişdi ki, bəyanatlar səsləndirilərkən çox diqqətli olmaq lazımdır: "Azərbaycan və Ermənistan arasında münaqişə çox çətin bir prosesdir. Bu baxımdan bəyanatlara diqqət edilməlidir. Bu, başlanğıc nöqtəyə qayıtmamağımız və prosesin sıfıra düşməməsi üçün vacibdir. Əlbəttə ki, biz tərəflərin bəyanatlarının sülh yolu ilə münaqişənin həllinə yönəlmiş ümumi səylər kontekstinə uyğun gəlməli olduğu qənaətindəyik. Çox istərdik ki, daxili siyasi proseslərə hörmətlə yanaşaq. Lakin bununla yanaşı, bütün tərəflərin eyni prinsipdən - sürətli sülh yolu ilə həll etmə prinsipindən çıxış etməsini də istərdik".

Göründüyü kimi, Moskva Paşinyanın fikirlərini çox ağrı ilə qəbul edib. Rusiya artıq Lavrov səviyyəsində bu məsələyə reaksiya verir. O da aydındır ki, Lavrov burada həm də Putinin mövqeyini əks etdirir. Beləliklə, baş verənlərin təhlili göstərir ki, Moskva İrəvanın mövqeyindən əsaslı surətdə narazıdır. Erməni ekspert Armen Kareyan isə bildirir ki, Ermənistan daxilində artan narazılıq fonunda Rusiyanın da İrəvandan məmnun qalmaması Paşinyan hakimiyyətinə baha başa gələ bilər: "Ermənistan daxilində vəziyyət gərginləşir. İqtisadi, sosial sahələrdən tutmuş siyasi sferaya qədər hakimiyyətin siyasəti üzündən heç də xoşagələn vəziyyət yaranmayıb. Burada hakimiyyətin qüsurları da az rol oynamır. Məsələn, kim deyə bilər ki, bu hökumətin ideoloji əsası nədir, Paşinyanın komanda yoldaşlarının "sementləndiyi" ətrafında hansı fikri var? "Serji inkar et" və "Qürurlu erməni" ideologiyası var. "Serji inkar et" - ölkəni çaxnaşmalardan uzaq saxlamaq üçün prezident Sarkisyanın istefa verdiyi anda özü-özünü təhdid edib. Qürura gəldikdə isə, yenə də bu məsələdə Paşinyanı məyus etməliyik. Çünki meydanlarda, platformalarda verilən vədlərin heç biri həyata keçirilməyib. Ermənistanın sosial-iqtisadi vəziyyəti getdikcə pisləşir. Beynəlxalq təşkilatlarda Ermənistanın reytinqi sıfıra düşüb, amma bütün dövlət sistemi Paşinyan hakimiyyətinin və nüfuzunun qorunub saxlanmasına xidmət edir. Belə bir vəziyyətdə Paşinyan daxili düşmən axtarışlarını davam etdirir. Bunu xüsusi canfəşanlıqla yerinə yetirir. O, erməni cəmiyyətini bezdirici həbs şouları ilə qidalandırmağa davam edir, əvvəlki hakimiyyəti hədəfləməklə şəxsi uğursuzluqlarını gizlətməyə, əvvəlki hakimiyyətin üstünə atmağa çalışır. Şəhər çirkab, zibil içində itib-batır, bunda məgər əvvəlki hakimiyyət günahkardır? Vəd edilən sərmayələr yoxdur, korrupsiya iqtidardaxili dövrə vurur, bunda yenə də keçmiş hakimiyyət günahkardır? Ermənistanın beynəlxalq platformalarda bir tamaşa səhnəsinə çevrildiyi qeyd edilir. Bütün bunlarda yalnız Sarkisyan və Köçəryanın günahkar olması axtarışındadırlar. Qısa desək, bütün bu tamaşalarda maraqlı tərəf yalnız bir nəfər, o da Paşinyandır. Dövlətin bir nəfərin qurbanına çevrilməyəcəyinə kim zəmanət verə bilər? Hətta humanitar koridor zəmanəti olduğu halda belə tezliklə buna ehtiyac duyan Paşinyan yumşaq kreslosundan imtina etməli olacaq. Ümidlərini güc strukturlarına bağlasa da, gələcək həyat Paşinyana yaxşı heç nə vəd etmir. Xalq arasında mövcud olan məyusluq getdikcə yalnız dərinləşməkdədir. Təbii qazın qiymət artımı, artıq mətbuatın bu artımın 30% təşkil edəcəyindən xəbər verməsi bu mürəkkəbliyin sadəcə bir səbəbidir.

Belə vəziyyət həm də Rusiyanın Paşinyandan narazılığının bir ifadəsidir. Amma Moskva təkcə qazın qiymətini qaldırmaqla kifayətlənməyəcək. O, digər təsir vasitələrini də işə salacaq və bu hal ölkədə sosial-iqtisadi vəziyyəti gərginləşdirəcək, cəmiyyəti oyadacaq və "inqilab" deyilən vəziyyətə yenidən baxılmasına məcbur edəcək. Bu barədə Paşinyan düşünübmü, bu halda nə cavab verəcək? Bəs Moskva Qarabağ məsələsində Azərbaycanın yanında yer alsa nə olacaq? Bu gedişlə görünür ki, Kreml Bakının tərəfini tutacaq. Bunlar Paşinyanın daxildə və xaricdə siyasi gedişlər zamanı yol verdiyi səhvlərdən qaynaqlanır".

Qeyd edilənlərdən bir daha bəlli olur ki, Paşinyanın naşı siyasəti Ermənistana baha başa gələcək və proseslərin gedişi Qarabağ münaqişəsinə də öz təsirini göstərəcək. Yəni proseslərin inkişaf axarı Moskva-İrəvan münasibətlərinin Qarabağ məsələsində də öz əksini göstərəcəyini deməyə əsas verir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Azərbaycan dünyada qızışan yeni ticarət savaşından qoruna biləcək - nəyin sayəsində...

**Dünya iqtisadiyyatında bu gün ən çox diqqət cəlb edən məsələlərdən biri ABŞ və Avropa Birliyi (AB) arasında yeni ticarət savaşının başlanmasıdır. Qeyd edək ki, ABŞ Avropa Birliyindən gələn 7,5 milyard dollar həcmində məhsula 10-25 faiz arasında əlavə gömrük rüsumları tətbiq etməyə hazırlaşır. 18 oktyabrdan etibarən qüvvəyə minəcək tariflər fransız şərabı, viski, pendir kimi məhsulları da əhatə edir.**

Bütün bunlara səbəb ABŞ-ın Ümumdünya Ticarət Təşkilatına (ÜTT) müraciəti və qurumun verdiyi qərardır.

ABŞ bəyan edir ki, Avropa Birliyi Fransanın təyyarə istehsalçısı "Airbus"a indiyə qədər dəstək verərək haqsız rəqabətə yol açıb. Elə bu səbəbdən ABŞ Ümumdünya Ticarət Təşkilatına şikayət edib. ÜTT isə Avropa Birliyinin Fransanın təyyarə istehsalçısı "Airbus"a verdiyi dəstəyi haqsız rəqabət kimi qiymətləndirib. Bu fonda ÜTT ABnin "Airbus"a qanunsuz hökumət yardımı etməsinə görə, cəzalandırıcı tədbir olaraq, ABŞ-ın 7.5 milyard dollarlıq Avropa məhsullarına əlavə vergi tətbiq etməsinə razılıq verib. Bu qərar təşkilatın tarixindəki ən yüksək təzminatdır. ABŞ Ticarət Nazirliyi tərəfindən verilən açıqlamaya görə, Vaşinqton Fransa, Almaniya, İspaniya və Birləşmiş Krallıq mülki hava vasitələrinə 10 faiz əlavə gömrük vergisi tətbiq edəcək. Həmçinin viski, şərab, zeytun, pendir, kərə yağı, qatıq və bəzi donuz əti məhsulları kimi bir sıra məhsullara da vergilər artırılır. Ekspertlər bildirir ki, ABŞ-ın Avropadan idxal etdiyi məhsullara əlavə vergi tətbiq etməsi qlobal ticarət savaşının yeni mərhələyə qədəm qoyması deməkdir. İqtisadçı Vüqar Bayramov qeyd edilən xüsusda bildirib ki, bu kontekstdə 2020-ci ildə də qlobal iqtisadi artım tempinin azalması və strateji bazarlarda volatilliyin yüksək olması gözlənilən: "Ümumdünya Ticarət Təşkilatına müraciət edən Tramp administrasiyası Fransa, Almaniya, İspaniya və Böyük Britaniyadan idxal edilən məhsullara yeni rüsum tətbiq etmək niyyətindədir. Deməli, ticarət savaşları yeni qlobal iqtisadi böhran üçün ciddi əsaslar yaratmaqdadır. Yeni qlobal ticarət savaşı artıq birjalara təsir göstərməkdədir".

Amma ticarət savaşı təkcə ABŞ və Avropa arasında şiddətlənmir. Prosesdə dünya iqtisadiyyatında xüsusi çəkisi ilə seçilən Çinin də fəal iştirakı başlanır. Artıq "Bloomberg" agentliyi Ağ Evdəki mənbələrinə istinad edərək, ABŞ-ın Çinin maliyyə bazarlarına qarşı təzyiqləri artıracaq yeni tədbirləri nəzərdən keçirdiyini bildirir. Qeyd olunur ki, bu tədbirlər 2 istiqamətdə məhdudiyyətlərin həyata keçrilməsini nəzərdə tutur: "1. ABŞ-ın maliyyə bazarlarında qeydiyyatdan keçmiş və keçmək istəyən Çin şirkətlərinin ölkə qanunvericiliyinin şəffaflıq və hesabatlılılıq tələblərinə tam cavab verməsini təmin etmək, əks halda isə qeydiyyatdan çıxarmaq. İndiyə qədər Çin şirkətləri ABŞ-ın maliyyə bazarından 1,2 trilyon dollar vəsait cəlb ediblər, lakin həmin şirkətə investisiya etmiş amerikalı investorların lazımı məlumatlara çıxışı məhdud-dur. 2. Milli təhlükəsizliyi nəzərə alaraq, ABŞ maliyyə institutlarının Çin şirkətlərinə investisiya etməsini məhdudlaşdırmaq".

Bütün bunlar onu göstərir ki, Vaşinqtonun Pekinə qarşı siyasəti ABŞ-ın Çinə kapital axınının qarşısını mümkün qədər almaq istədiyini göstərir. Xatırladaq ki, bir qədər əvvəl Çin ölkənin maliyyə bazarlarını xarici investorların üzünə tam açmaq üçün islahatlar həyata keçirməyə başlayıb. Ekspertlər qeyd edir ki, indiyə qədər Donald Tramp administrasiyanın Çinlə ticarət üçün istifadə etdiyi rüsum siyasəti gözlənilən nəticəni verməyib. Məsələn, hazırda 1 dollar 7,12 yuana bərabərdir. Bu rəqəmin 7,8-ə qalxması qüvvədə olan tariflərin təsirini neytrallaşdıra bilər.

Sürətlə inkişaf edən Çin iqtisadiyyatının xarici maliyyə resurslarına tələbatı olduqca yüksəkdir və daxili imkanlar bunu ödəyə bilmir. Kapital cəlb etmək üçün isə dünyada ABŞ-ın müasir, dərin, şəffaf və likvid maliyyə bazarlarına alternativ yoxdur. Yəni qlobal ambisiyası olan Çin şirkətləri mütləq bu bazardan maliyyələşməlidir. İndi ABŞ bunun qarşısını almağa çalışır və belə vəziyyət Çinlə ticarət qarşıdurmasının daha da kəskinləşməsi deməkdir. Rusiya, Hindistan, Braziliya, Türkiyə kimi ölkələrin də ABŞ-la ticarət qarşıdurması səngimir. Cənubi Amerika ölkələri də ABŞ-la ticarət savaşını davam etdirir. İndi bu prosesdə Avropa və ABŞ, eləcə də ABŞ və Çin arasında qarşıdurmanın kəskinləşməsi məsələnin daha radikal xarakter aldığını göstərir.

Aydındır ki, baş verənlər bütün dünya iqtisadiyyatına, o cümlədən Azərbaycana da müəyyən qədər təsir göstərəcək. O səbəbdən proses ölkəmizdə də diqqətlə izlənilir. Lakin real vəziyyətin təhlili göstərir ki, qızışan ticarət savaşı Azərbaycan üçün müəyyən parametrlər baxımından ciddi təhdid yaratmayacaq. Məsələn, məlumdur ki, Azərbaycan Avropa Birliyi ilə böyük ticarət əlaqələrinə malikdir. Qarşıdakı dövr ərzində bu istiqamətdə əlaqələrin daha da dərinləşdirilməsi nəzərdə tutulur. Bu isə o deməkdir ki, Avropa Birlyinin yeni ticarət rüsumları Azərbaycan məhsullarına şamil olunmayacaq. Eləcə də Birləşmiş Ştatlarla Azərbaycan arasında bir çox istiqamətləri əhatə edən münasibətlər mövcuddur. Azərbaycan Birləşmiş Ştatlarla geniş iqtisadi əməkdaşlıq əlaqələri qurub. Bu əməkdaşlığın əsas istiqamətləri isə Azərbaycanda neft və qaz sektorunun inkişafı, yeni boru kəmərlərinin tikintisi və istismarı, "Şərq-Qərb" dəhlizi



boyu infrastruktur layihələrinin həyata keçirilməsi, qeyri-neft sektoru sahəsində qarşılıqlı ticarətin genişləndirilməsidir. İki ölkə arasında iqtisadi münasibətlərin genişlənməsinin göstəricilərindən biri olaraq ticarət dövriyyəsinin həcmi də ildən-ilə artmaqdadır.

Hazırda Azərbaycanın Çinlə də ticarət dövriyyəsində müsbət dinamika müşahidə olunur. Bununla belə, ticarət əlaqələrinin daha da genişləndirilməsi üçün potensial böyükdür və bu potensialın reallaşdırılması istiqamətində Azərbaycan tərəfindən ardıcıl tədbirlər görülür. Eyni zamanda, Çin tərəfindən həyata keçirilən idxala dəstək siyasəti Azərbaycanın yüksək keyfiyyətli məhsullarının Çin bazarında təklif olunması üçün əlverişli şərait yaradır. Çinin "Bir Kəmər, Bir Yol" strategiyasını dəstəkləyən ilk ölkələrdən olan Azərbaycan, həm də bu təşəbbüsün reallaşdırılmasında fəal iştirakçıdır. Deməli, ABŞ və Çinlə ticarətdə də ölkəmizin hansısa problemi olmayacaq. Sadəcə, mümkündür ki, yeni ticarət savaşı neft və neft məhsullarını müəyyən qədər ucuzlaşdırsın. Bu durumda Azərbaycanın neft gəlirləri azala bilər. Amma artan qeyri-neft ixracı və gələn ildən Avropaya satılan qaz bu istiqamətdə ölkəyə əlavə gəlirlər vəd edir. Məhz bütün bunlar yeni ticarət savaşının Azərbaycana təsirini minimal həddə salır.

***Tahir TAĞIYEV***

**Sentyabrın 30-da Müsavat Partiyasının qurultayına hazırlıq üzrə təşkilat komitəsi oktyabrın 9-da partiya başqanlığına namizədlər arasında debat təşkil etməklə bağlı qərar qəbul edib. Debat Müsavat Partiyasının qərargahında keçiriləcək.**




# "Başqanlar debatı" Müsavat Partiyasının ən uğursuz layihələrindən birinə çevrilə bilər - Müsavatın iç məsələləri cəmiyyətin neçə faizi üçün maraqlı ola bilər...

## Məhərrəm Zülfüqarlı: "Bu cür metodların tətbiqi uğursuzluğa məhkumdur"

Qeyd edək ki, Müsavat Partiyasının 9-cu qurultayı oktyabrın 12-də keçiriləcək. Partiyanın başqanlığına indiyədək 3 namizəd irəli sürülüb. Bunlar Müsavat Divanının üzvləri Tofiq Yaqublu, Yadigar Sadıqlı və hazırkı başqan Arif Hacılıdır.

İndiki dövrdə Müsavat Partiyası tərəfindən belə bir debatın təşkili təsadüfi deyil. Bu, partiyaya diqqəti cəlb etmək üçün bir taktiki gedişdir. Hərçənd, partiyanın daxili məsələlərini debat müstəvisinə çıxararaq bununla cəmiyyətin diqqətini cəlb etmək real görünmür. Məlum olduğu kimi, son vaxtlar AXCP daxilində yaşananlar sözügedən partiyanı biabırçı bir sonluğa yaxınlaşdırıb. Belə ki, partiya daxilində Əli Kərimliyə qarşı yüksək funksionerlər səviyyəsində artan narazılıqlar, səslənən ittihamlar, Fuad Qəhrəmanlının ailə üzvlərinin səsləndirdiyi fikirlər AXCP-ni sarsıdıb. Bununla belə, partiya sədrinin "troll şəbəkəsi"ni təlimatlandırmasının üzə çıxması AXCP-dən istefaları sürətləndirir. Bir sözlə, AXCP son proseslər timsalında siyasi arenada tamamilə mövqelərini itirib. Bütün bunların fərqində olan Müsavat Partiyası yaranan bu boşluğu doldurmaq üçün partiyadaxili məsələləri debata çıxararaq bununla cəmiyyətin diqqətini özünə çəkmək istəyir. Ancaq nə etmələrindən asılı olmayaraq, bu gün Azərbaycan cəmiyyəti üçün Müsavatın iç məsələləri maraqlı deyil. Debat olmur, nə keçirsələr belə, xeyri yoxdur. Bunu şərtləndirən bir sıra faktorlar var.

Əvvəla Müsavat Partiyasının ictimai rəyə təsir imkanları ötən illər ərzində sıfıra enib. Partiyanın 2014-cü ilin sentyabrında keçirilən sonuncu qurultayından sonra xeyli sayda şəxs Müsavatı tərk edib. Həmin vaxtdan sonra Müsavat Partiyasının az-maz mövcud olan monolitliyi tamamilə dağılıb. Arif Hacılı başqan olandan sonra partiyanı tərk edənlər artıb. Düzdür, ondan əvvəl də partiyadan gedənlər olub, ancaq son bir neçə ildə, ümumiyyətlə, Müsavat Partiyasının təəssübkeşləri kəskin şəkildə azalıb. Belə olan halda, əlbəttə, partiyada gedən proseslər cəmiyyət üçün heç bir maraq kəsb etmir. Bu baxımdan, Müsavat Partiyasında başqanlığa namizədlər arasında debatın keçirilməsi nə mövcud boşluğu dolduracaq, nə də cəmiyyətin diqqətini sözügedən təşkilata cəlb edəcək.

Məsələyə münasibət

### "Müsavat Partiyası daxilində olan məsələlər cəmiyyət üçün maraqlı deyil"

bildirən İctimai Problemlərin Tədqiqi Assosiasiyasının rəhbəri Məhərrəm Zülfüqarlının sözlərinə görə, bu cür metodların tətbiqi uğursuzluğa məhkumdur: "Ən başlıcası ona görə ki, Müsavat Partiyası daxilində olan məsələlər cəmiyyət üçün maraqlı deyil. Ona görə ki, sözügedən partiyanın ictimai rəyə təsiri yoxdur. Digər tərəfdən, partiya daxilində sədrlik uğrunda mübarizə gedirsə, keçirilən debat birbaşa partiya üzvlərinin gələcəkdə mövqelərinə təsir edə bilər.

Bu baxımdan, Müsavat Partiyasında keçiriləcək debat gələcəkdə kimin başqan olmasına təsir göstərə bilər. Ancaq bütün bunların cəmiyyətin digər üzvləri üçün heç bir əhəmiyyəti yoxdur. Ona görə ki, cəmiyyətə maraqlı deyil partiya daxilində nə baş verir. Müsavat Partiyası nüfuzlu bir siyasi təşkilat olsaydı, o zaman keçiriləcək debat hansısa maraq kəsb edə bilərdi. Bu olmadığına görə bunun heç bir mənası yoxdur. Bu, sırf partiya üzvləri üçün xarakterik olan bir şeydir. Başqa heç nə".

***Vidadi ORDAHALLI***

---

**Azərbaycanın vergi orqanları Azərbaycan vətəndaşlarının İsveçrə banklarındakı hesabları ilə bağlı müvafiq informasiyaları ala biləcəklər. Belə ki, İsveçrə parlamenti müvafiq sazişlər imzaladığı 36 dövlətdən əlavə, 19 ölkəyə, o cümlədən, Azərbaycana bank və vergilərlə bağlı informasiya verməyə başlamağa dair qərar qəbul edib.**




# İsveçrə parlamentindən Azərbaycana yönəlik misilsiz qərar - vergi orqanları istənilən şəxsin hesabları barədə məlumat ala biləcək...

## Fuad İbrahimov: "Bu qərarın qəbul edilməsi mühüm əhəmiyyət kəsb edir"

Azərbaycan və İsveçrə arasında faktiki bank və vergi məlumatları mübadiləsi 2021-ci ildə başlayacaq. Nəticədə İsveçrənin təxminən yüz dövlətlə avtomatik vergi və maliyyə məlumatları mübadiləsi ilə bağlı fəaliyyət göstərəcəyi gözlənir. Bu qərar sözügedən ölkədə vergidən yayınma ilə mübarizə bank sirrindən üstün tutulduğuna görə qəbul edilib. 2014-cü ildə "Böyük iyirmilik" (G20) İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının dəstəyilə bütün növ maliyyə cinayətlərinə, o cümlədən, "çirkli pulların yuyulmasına" və vergidən yayınmağa qarşı yeni standartlar hazırlayaraq qəbul edib. Bu standartların əsasını bank, vergi və digər müvafiq məlumatların avtomatik mübadiləsi mexanizmi təşkil edir.

Yüzə yaxın dövlət bu standartları tətbiq etmək qərarına gəlib və onlardan bəziləri 2017-ci ildən etibarən avtomatik olaraq məlumat mübadiləsinə başlayıb. Beləliklə, söhbət aşağıda qeyd olunan məlumatlardan gedir: hesab nömrələri, vergi ödəyicisinin eyniləşdirmə nömrələri (VÖEN), vergi rezidentinin adı, soyadı, ünvanı, doğum tarixi, gəlir növləri və vergi məlumatlarının verildiyi tarixdə hesabın vəziyyəti. Azərbaycanla yanaşı, 2021-ci ildən etibarən Çin, Səudiyyə Ərəbistanı, Livan, Pakistan, Qazaxıstan, Qana, Nigeriya və Kolumbiya da İsveçrədən bank məlumatlarını alacaqlar.

Bununla yanaşı, qeyd etmək lazımdır ki, Azərbaycan Maliyyə Monitorinqi Xidmətinin məlumatına görə, Avropa Şurasının Çirkli Pulların yuyulmasına Qarşı Mübarizə Tədbirlərinin Qiymətləndirilməsi Komitəsi (MONEYVAL) Azərbaycanın "çirkli pulların yuyulmasına" və terrorizmin maliyyələşdirilməsinə qarşı mübarizə sistemini müsbət qiymətləndirir.

Bütövlükdə, İsveçrə parlamentinin qərarını ekspertlər necə dəyərləndirirlər? Bunun nə kimi əhəmiyyəti var?

Məsələyə münasibət bildirən iqtisadçı-ekspert Fuad İbrahimov buna bir neçə kontekstdən yanaşdı: "Bu qərarın qəbul edilməsi mühüm əhəmiyyət kəsb edir. O baxımdan ki, ora qoyulan vəsaitlərin tarixçəsi təmizdirsə, o zaman vəsait sahibləri üçün bir problem olmayacaq. Yox, əgər İsveçrə banklarında yerləşdirilən vəsaitlərin tarixçəsində kölgə sala biləcək hansısa məqam olarsa, bu o deməkdir ki, həmin vəsaitlərin mənbəyi təftiş ediləcək. Belə olduğu halda, şübhəsiz ki, aidiyyəti orqanlar tərəfindən bunun araşdırılması aparılacaq. Ancaq düşünmürəm ki, İsveçrə bankında hər hansı bir vəsaitin qaranlıq bir tarixçəsi ola bilsin. Şübhəsiz ki, sözügedən vəsait ora gedib çatıbsa, vəsaiti ora qoyanlar lazımi tədbirləri görüb.

### "...aidiyyəti orqanlar tərəfindən bunun araşdırılması aparılacaq"

**Çünki İsveçrə banklarına tamamilə mənbəsi qaranlıq olan vəsaitləri yerləşdirmək olmur. Həmin banklara hardasa bünövrəsi olmuş vəsaitlər yerləşdirilir. Hesab edirəm ki, orada yerləşdirilən vəsaitlərə amnistiya verilsə, o zaman banklarda olan həmin vəsaitlərin investisiya formasında Azərbaycana qayıtması ehtimalı artacaq".**

***Vidadi ORDAHALLI***

# Azərbaycan İtaliya və Türkiyədən sonra dünya üçüncüsü - fındıq ixracında inqilabi nəticələr...

**Son illər kənd təsərrüfatında ixrac potensialı yüksək olan sahələrin inkişafına diqqət artıb. Bir çox dünya ölkəsi ixracyönümlü məhsulların, o cümlədən, fındıq istehsalını artırmaqla daha çox valyuta əldə etməyə çalışır. Ölkəmizdə də kənd təsərrüfatı məhsullarının ixracı getdikcə artmaqdadır. Son 15 il ərzində kənd təsərrüfatı məhsullarının ixracı təxminən 6 dəfə artıb.**



## *Nicat Nəsirli: "Fındıqçılıq sahəsi getdikcə öz əhəmiyyətini artırmaqdadır"*

Ancaq mövcud potensialın böyük olduğunu deyən ölkə başçısı dəfələrlə öz çıxışında bildirib ki, biz yeni bazarlara çıxmalıyıq: "Son vaxtlar fındıqçılığa çox böyük diqqət yetirilir. Biz fındıq bağlarının sahəsini qısa müddətdə böyük dərəcədə artırmışıq. 2016-cı ildə bizim 40 min hektar fındıq bağlarımız olub, bu gün artıq 75 min hektara çatıb və bu il 9 min hektar da əkiləcək. Beləliklə, biz 84 min hektarda fındıq yetişdirəcəyik. Əlbəttə, yeni salınan bağlar bar gətirənə qədər bir neçə il keçəcək. Amma ondan sonra fındıq ixracının həcmi iki dəfədən çox artacaq və fermerlərə indikindən iki dəfə çox vəsait gələcək. Hazırda fındıqçılıqda 20 min nəfər işləyir".

Məlumat üçün bildirək ki, son illər dünyada 1 milyon ton fındıq məhsulu əldə edilib. Türkiyə bu bazarın 70 faizinə malikdir. İtaliya ən çox fındıq idxal edən ölkə olduğu halda, eyni zamanda, istehsalda Türkiyədən sonra ikinci sırada yer alır. İtaliya ildə 125 min ton fındıq istehsal edir.

Məlumdur ki, fındıqçılığın inkişaf etdirilməsi ilə bağlı ölkəmizdə davamlı tədbirlər həyata keçirilir. Dövlət başçısının ənənəvi sahələrdən olan fındıqçılığın inkişaf etdirilməsi ilə bağlı verdiyi tapşırıq və göstərişlərə əsasən, yerlərdə əkin sahələri genişləndirilir, istehsalçı müəssisələrin sayı artırılır. Görülən işlər sayəsində fındıqçılıq ölkədə yüksək sürətlə inkişaf edir. Fındıqçılıq sahələri, istehsal olunan məhsulun həcmi artır. Təbii ki, məhsul yüksək olanda bu hal ixraca da təsir göstərir. Son illər fındıq ixracı artır. Açıqlanan statistik rəqəmlərə əsasən, fındıq ixracına görə Türkiyə və İtaliyadan sonra üçüncü yerdəyik.

Fındıq İstehsalçıları və İxracatçıları Assosiasiyasının sədri İsmayıl Orucov media nümayəndələrinə açıqlamasında deyib ki, Azərbaycan 2018-ci ildə də dünya bazarında öz yerini qoruyub saxlaya bilib. Hazırda fındıq ixracına görə Türkiyə və İtaliyadan sonra üçüncü yerdəyik. Bu il məhsuldarlığın nisbətən az olmasına baxmayaraq, 8 ayın statistikası çox uğurludur: "Belə ki, ötən ilin 8 ayında xaricə 40 milyon 500 min ABŞ dolları həcmində fındıq ixrac olunmuşdusa, cari ildə ixracımız artıq 76 milyon 900 min dollara çatıb. Yəni fındıq ixracımız 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 89,9 faiz artıb. Düşünürəm ki, ilin sonunadək biz dünya ölkələrinə ötən ildəkindən iki dəfə çox fındıq ixrac edəcəyik".

Kənd təsərrüfatı məsələləri üzrə ekspert Nicat Nəsirli bizimlə söhbətində qeyd etdi ki, fındıqçılığın geniş perspektivləri var. Dünya bazarlarında son illər ümumi mənzərənin çox sürətlə dəyişməsi müşahidə edilir: "Əvvəllər dünyada strateji məhsul olaraq çörək məhsulları, qırmızı ət, qarğıdalı, buğda və digərləri hesab olunurdu. Ancaq son illər dünya bazarında fındıq strateji əhəmiyyətinə görə lider məhsullardan biridir. Buna görə də fındıq yetişdirən ölkələrdə ciddi irəliləyişlər müşahidə edilir və bu sahədə yeni innovasiyalardan istifadə olunur. Hər hektara düşən məhsulun həcmini artırmaq istiqamətində ciddi işlər görülür. Bildiyimiz kimi, Türkiyə və Azərbaycan fındıq istehsal edən əsas ölkələrdəndir. Fındıqçılıq sahəsi getdikcə öz əhəmiyyətini artırmaqdadır. Hazırda bizim qarşımızda duran məsələ fındığın tingçiliyini təşkil etməkdir. Məlumat üçün bildirim ki, ting ağacları İtaliya, İspaniya və Türkiyədən gətirilir. Ona görə də mütləq Azərbaycanda tingçilik təşkil edilməlidir. Həmçinin, daha çox dünya bazarlarında satılan sortlara müraciət olunmalıdır. Azərbaycanda yetişən fındıq nisbətən xırda və yağlı olur. Qeyd edim ki, əksər xarici ölkənin fındıqlarının yağlılığı aşağı olur".

*"Azərbaycanda yetişən fındıq nisbətən xırda və yağlı olur"*

Həmsöhbətimiz onu da əlavə etdi ki, fındığın əhəmiyyətinin artmasının müxtəlif səbəbləri var. Fındığın tullantılarından mebel sənayesində geniş istifadə olunur. Eyni zamanda, şirniyyat sahəsində fındıq əsas xammallardan biri sayılır: "Bu tendensiya ildən-ilə artan istiqamətdə davam edəcək. Azərbaycanda da bu sahədə müəyyən hazırlıq işləri görülür. Çoxillik əkin kimi fındıqçılıq subsidiyaya cəlb olunacaq. Ölkədə fındıq əkən insanlar təşkilatlanaraq assosiasiyalarda birləşirlər".

*Günel CƏLİLOVA*

# "Abituriyentlərin istifadə etdiyi əlavə dərs vəsaitləri hər il yenidən nəşr edilsə də, əslində, onların içində çox cüzi dəyişikliklər edilir"

**Ali məktəblərə hazırlaşan abituriyentlərin bir çoxu məktəbdən kənarda da müxtəlif fənlər üzrə repititor yanına gedirlər. Onların repititorların yanına getməkdə məqsədləri əlavə vəsaitlər hesabına öz biliklərini daha da möhkəmləndirməkdir. Amma, bildiyimiz kimi, bir sıra hallarda bilik yükü olmayan 11-cilərə heç repititorların verdiyi biliklər də kömək etmir.**




## *Xanım Qasımova: "Abituriyentlərdən yeni nəşr olunan hazırlıq vəsaitləri tələb edən bu repititorlar bəzi işbazlarla əlaqədə olan adamlardır"*

Problem təkcə bu deyil. Repititor yanına gedən abituriyentlərin qarşılaşdıqları daha ciddi bir çətinlik də var. Bu problem artıq onların özlərini və valideynlərini dilə gətirib. Bu da abituriyentlər üçün nəzərdə tutulan dərsliklərin, əlavə tədris vəsaitlərinin qiymətinin sürətlə bahalaşmasıdır. Bundan başqa, bu tədris vəsaitləri içində cüzi dəyişikliklər edilməklə hər il yenidən nəşr edilir. Repititorlar da abituriyentdən tələb edir ki, köhnə nəşr işə yaramadığı üçün yeni vəsaitlər almalıdırlar. Xüsusən də bu tələbin riyaziyyat fənni ilə bağlı olduğu bildirilir. Qiymətlər isə ilbeil daha da bahalaşır. Məsələn, keçən il cəbr və həndəsə vəsaitləri bütöv dərslik halında 15 manata satılırdısa, bu il dəyişiklik edilib. Ayrı-ayrılıqda satılan cəbr və həndəsə dərs vəsaitlərinin qiyməti 11 manat 50 qəpikdir.

Keçən il alınan vəsaitin bu il istifadəsinə icazə verilmir. Halbuki, keçən il nəşr olunub istifadəyə verilən tədris vəsaitləri ilə builki vəsaitlərin içindəki tapşırıqlar arasında elə də ciddi fərq olmur. Suallar da, mövzular da, məsələlərin qoyulması da eynilik təşkil edir.

Ekspertlər bildirirlər ki, bəzi repititorlar işbazlarla əlaqədə olduqları üçün onlar abituriyentlərdən yeni nəşrlər tələb edirlər. Onların sözlərinə görə, Dövlət İmtahan Mərkəzi abituriyentlər üçün dərs vəsaitlərini cüzi dəyişiklik etməklə yenidən buraxır və bəzi müəllimlər də hazırlığa gedən uşaqları məcbur edir ki, yeni kitab alsınlar, guya o vəsaitlərin arasında hansısa fərqlər var.

Tanınmış təhsil eksperti Xanım Qasımova "Bakı-Xəbər"ə bildirdi ki, abituriyentin əlavə dərs vəsaitlərindən istifadə etməsi yaxşı haldır və bu onlara müsbət təsir göstərir. Bununla belə, X.Qasımova hesab edir ki, 11-ci siniflər üçün nəzərdə tutulan cəbr və həndəsə, elecə də Azərbaycan dili və digər əlavə dərs vəsaitlərinin içindəkilər elə də ciddi şəkildə dəyişmədiyi üçün, abituriyentlər köhnə nəşrlərdən də istifadə edə bilərlər. X.Qasımovanın sözlərinə görə, abituriyentlərin öz biliklərini genişləndirməsi üçün əlavə vəsaitlərə ehtiyac var. "Bilirsiniz, abituriyentlərin istifadə etdiyi əlavə dərs vəsaitləri hər il yenidən nəşr edilsə də, əslində, onların içində çox cüzi dəyişikliklər edilir. Bu baxımdan hesab edirəm ki, abituriyentlərin keçən il istifadə etdikləri vəsaitlərdən bu il də istifadə etmək tam mümkündür. Ümumiyyətlə, abituriyent hazırlığı üçün əlavə dərs vəsaitləri birillik deyil, ən azı beşillik tərtib edilməlidir. Çünki, dediyim kimi, sual və tapşırıqlarda elə də ciddi fərqlər olmur. Sadəcə, keçən il nəşr olunan vəsaitə kiçik əlavələr etməklə onları yenidən nəşr edib satışa buraxırlar. Halbuki, buna heç ehtiyac da yoxdur. Hesab edirəm ki, abituriyentin hazırlaşdığı vəsaitlərdən növbəti il onun bacı-qardaşı, qohumları da istifadə edə bilər. Bəzi repititorların abituriyentlərə yeni nəşr edilən vəsaitlər aldırması düzgün deyil. Abituriyentlərdən yeni nəşr olunan hazırlıq vəsaitləri tələb edən bu repititorlar bəzi işbazlarla əlaqədə olan adamlardır və onların bu tələbi də sırf biznes maraqlarına xidmət edir. Fikrimcə, abituriyent hazırlığı məsələsində daha həssas olmaq, onların maddi vəziyyətini, imkanlarını nəzərə almaq lazımdır. Abituriyentlər üçün əlavə tədris vəsaitlərinin qiyməti elə müəyyən edilməlidir ki, əlçatan olsun, hər kəs onlardan istifadə edə bilsin" - deyə X.Qasımova vurğuladı.

*"...qiyməti elə müəyyən edilməlidir ki, əlçatan olsun"*

*İradə SARIYEVA*

# Məktəbəqədər təhsildə mövcud problemlər nazir müavinini də dilə gətirdi...

**Azərbaycanda məktəbəqədər təhsillə bağlı mövcud olan problemlər dəfələrlə gündəmə gətirilib, müzakirə predmetinə çevrilib. Məktəbəqədər təhsilin səviyyəsinin aşağı olması hər zaman qeyd edilib. Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva da Avropa İttifaqının maliyyələşdirdiyi və YUNİSEF-in dəstəyilə Təhsil İnstitutu tərəfindən icra olunan "İcma qrupları vasitəsilə məktəbəqədər və ibtidai təhsilin yaxşılaşdırılması" layihəsinin təqdimat mərasimində bu məsələni gündəmə gətirib.**

## *Nadir İsrafilov: "Son illər Bakı şəhərində yeni məktəbəqədər təhsil müəssisələrinin inşası, əsaslı təmiri istiqamətlərində atılan addımlar nəticəsində məktəbəqədər təhsilə cəlbolunmanın səviyyəsi artıb"*



*"Bir sıra işbazlar bu bağçaları özəlləşdirəndən sonra onların təyinatını dəyişdilər"*

M.Vəliyeva bildirib ki, məktəbəqədər təhsil uşaqların gələcək inkişafına çox ciddi təsir göstərir: "Məktəbəqədər təhsil, evdə öyrənmə mühiti, valideynlərin uşaqların təhsilində iştirakı şagirdlərin təlim nailiyyətlərinə ciddi təsir göstərir. Təhsil Nazirliyi beynəlxalq qiymətləndirmələrdə iştirak edir. Həmin qiymətləndirmələrdə bu üç meyar üzrə nəticələr heç də ürəkaçan deyil. Təəssüflər olsun ki, ölkəmizdə məktəbəqədər təhsilə cəlb olunan 3-4 yaşlı uşaqlar ölkə əhalisinin cəmi 15 faizini təşkil edir. Bu da göstəricilərin aşağı səviyyədə olmasının səbəblərindən biridir. Evdəki təhsil mühiti də uşaqların təhsilinə çox ciddi şəkildə təsir edir. Təəssüf ki, bu göstəricilər üzrə də ölkəmizin nəticələri aşağı sıralardadır. Bununla yanaşı, valideynlərin uşaqların təhsilində rolu uşaqların təlim nailiyyətlərinə təsir edən amil kimi götürülür. Ölkəmizdə bu göstəricinin aşağı səviyyədə olması təəssüfedicidir".

Məsələyə münasibət bildirən Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü, tanınmış təhsil eksperti Nadir İsrafilov "Bakı-Xəbər"ə bildirdi ki, məktəbəqədər təhsilin nəticələrinin qənaətbəxş olmaması bu sistemin Təhsil Nazirliyinin balansında olmamasıdır. N.İsrafilov hesab edir ki, məktəbəqədər təhsil müəssisələrinin yenidən Təhsil Nazirliyinin balansına qaytarılması böyük effekt verər və bu sahədə mövcud olan problemlərin kompleks həllinə şərait yaradar: "Məktəbəqədər təhsil müəssisələrinin nazirliyə qaytarılması ilə bağlı dəfələrlə təkliflər edilib. Dövlətin təhsil siyasətini həyata keçirən ali icra orqanı Təhsil Nazirliyidir. Digər tərəfdən də bizim bütün qanunvericilik sənədlərində təhsilin fasiləsizliyi, varisliyi, ardıcıllığı məsələləri əsas prinsiplər kimi qoyulub. Əgər təhsildə fasiləsizlik, varislik, ardıcıllıq varsa, necə olur ki, məktəbəqədər təhsil müəssisələri Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyindədir, amma məktəblər, orta ixtisas müəssisələri, ali məktəblər Təhsil Nazirliyinin balansındadır. Təhsilin fasiləsizlik, ardıcıllıq və varislik prinsiplərinin gözlənilməsi üçün mütləq məktəbəqədər müəssisələr Təhsil Nazirliyinin balansına keçməlidir. Bu olmadıqda əlaqə indiki kimi pozulur. Hesab edirəm ki, bu məsələnin həlli ölkə başçısının səlahiyyətindədir. Bilirsiniz ki, təhsil müəssisələrinin vahid mərkəzdən idarə olunması çox yaxşıdır".

N.İsrafilovun fikrincə, bu məsələ öz həllini tapdıqdan sonra bu sahədə mövcud problemlər aradan qaldırılacaq. "Məktəbəqədər təhsil sahəsindəki problemlərin mövcud olması ilə bağlı fikir səsləndirən Məhəbbət xanımın fikirləri ilə tam razılaşmaq olar. Çünki bu ciddi məsələdir. Məktəbəqədər təhsilin inkişafı üçün münbit şərait yaradılmaldır. Bir neçə il əvvəl Təhsil Nazirliyi tərəfindən məktəbəqədər təhsil müəssisələri özəlləşdirilməyə çıxarıldı. Özəlləşdirmənin şərtlərinə görə, həmin məktəbəqədər təhsil müəssisələri öz profillərinə uyğun fəaliyyət göstərməli idilər. O vaxt 300-ə yaxın məktəbəqədər təhsil müəssisəsi özəlləşdirilməyə çıxarıldı və onlardan 200-ə qədəri öz profilinə uyğun fəaliyyət göstərmədi. Bir sıra işbazlar bu bağçaları özəlləşdirəndən sonra onların təyinatını dəyişdilər, bu amil də məktəbəqədər təhsilin keyfiyyətinə mənfi təsir göstərdi. Uşaq bağçalarını uçurub yerində "göydələn"lər, restoran və kafelər, şadlıq sarayları, gözəllik salonları inşa etdilər. Bu da məktəbəqədər təhsil müəssisələri ilə bağlı xeyli problem, qıtlıq yaratdı. Halbuki, bu müəssisələrin özəlləşdirilməyə çıxarılması, əslində, bu istiqamətdə özəl sektorun inkişafına dəstək vermək idi. Eyni zamanda da məktəbəqədər təhsil Təhsil Nazirliyinin balansından çıxarılıb Bakı Şəhər İcra Hakimiyyətinin nəzdinə verildi".

N.İsrafilov qeyd etdi ki, 2013-cü ildə təhsilin inkişafı ilə bağlı dövlət tərəfindən strategiya qəbul edilib. Onun sözlərinə görə, bu strategiyada birmənalı şəkildə göstərlir ki, məktəbəqədər təhsilə cəlbolunma səviyyəsi aşağıdır. Məktəbəqədər təhsilin əhatə səviyyəsi şəhərlərdə 23,4, kəndlərdə 8,7, ölkə üzrə 16, 5 faiz təşkil edir. "Son illər Bakı şəhərində yeni məktəbəqədər təhsil müəssisələrinin inşası, əsaslı təmiri istiqamətlərində atılan addımlar nəticəsində məktəbəqədər təhsilə cəlbolunmanın səviyyəsi artıb və təxminən 27 faizə çatsa da, bu sahədə öz həllini gözləyən problemlər hələ də qalmaqdadır. Məsələn, o sənəddə hətta göstərilir ki, ölkənin yaşayış məntəqələrinin 75 faizində məktəbəqədər təhsil müəssisəsi yoxdur.

**Bu, strategiyada qoyulan məsələdir. Bu gün Təhsil Nazirliyi, eləcə də Heydər Əliyev Fondu yeni məktəbəqədər təhsil müəssisələrinin yaradılmasında, inşa edilməsində maraqlıdır. Ölkə başçısının belə bir göstərişi də oldu ki, inşa olunan çoxmərtəbəli binaların alt mərtəbələri uşaq bağçaları üçün istifadə olunsun. Yəni bu istiqamətdə işlər gedir, amma bununla belə, elə kəndlərimiz var ki, orada, ümumiyyətlə, uşaq bağçası yoxdur".**

***İradə SARIYEVA***

**Son illər boşanmaların sayı artır. Cari ilin 6 ayı ərzində 10 000-ə yaxın boşanma qeydə alınıb. Boşanmalar təkcə yeni ailə quranlar və yaxud gənclər arasında qeydə alınmır, uzun illərdir evlilik həyatı yaşayan, yaşı 60-dan çox olanlar arasında da kifayət qədərdir.**

# 60 yaşdan sonra boşanmalar artır - maraqlı sosial proses...



## Könül Vaqifqızı: *"Hətta özünü sığortalamaq məqsədilə, ev və mülklə bağlı boşanan yaşlıların da sayı az deyil"*

Açıqlanan statistik rəqəmlərə əsasən, ötən il 60 və daha yuxarı yaşda boşanan kişilərin sayı 373, bu yaşlarda boşanan qadınların sayı isə 173 nəfər olub.Ümumiyyətlə, 2018-ci ildə 60 və daha yuxarı yaş qrupuna aid 677 nəfər boşanıb.

Maraqlıdır, bu yaşda insanları boşanmağa vadar edən səbəb nədir?

Psixoloq Könül Vaqifqızı bizimlə söhbətində qeyd etdi ki, ahıl yaşda olan insanların boşanmasının müxtəlif səbəbləri var: "Ahıl yaşda boşanma qərarı alan şəxslərin evliliklərinin normal davam etməməsi ilə bağlıdır. Onlar bu yaşa qədər ya övladları, ya da valideynlərinə görə boşanmırdılar. Onların qarşısında dayanan səbəb isə mərhələli şəkildə dəyişir: ilk olaraq "el töhməti", daha sonra dünyaya gələn övladları, nəhayət, yaşlı valideynlərinə görə bir-birinə səbr edirlər. Nəticədə uşaqlar öz həyatlarını qurduqdan, valideynlər vəfat etdikdən sonra boşanmaq üçün heç bir maneə qalmadığını düşünərək bu qərarı reallaşdırırlar".

Həmsöhbətimiz onu da vurğuladı ki, bəzi ailələrdə əmlak bölgüsünə görə 60 yaşı keçən şəxslər boşanmağı qərara alır.

Psixoloqun sözlərinə görə, boşandıqdan sonra

*"Boşandıqdan sonra qadınlardan çox kişilər ahıl yaşda yenidən ailə həyatı qurmağa meylli olurlar"*

qadınlardan çox kişilər ahıl yaşda yenidən ailə həyatı qurmağa meylli olurlar: "Bəzən bu yaşda insanlar boşanandan sonra, bir çox hallarda, həyatlarını ilk sevdikləri insanlarla birləşdirirlər. Bunu çoxları etiraf edir. Qadınların bir qismi isə, əksinə, "alınsaydı, elə birinci nikahda xoşbəxt olardım", - deyib təkliyə üstünlük verirlər".

K.Vaqifqızı bildirdi ki, ahıl yaşda olan şəxslərin boşanması əvvəllər Avropa ölkələrində daha çox müşahidə olunurdu: "Boşanmalarla bağlı çoxlu sayda araşdırma aparmışam. Boşanmaq məqsədilə müraciət edən yaşlı kişilər arasında ağlabatan səbəb irəli sürən olmayıb. Onlar, sadəcə olaraq, həyat yoldaşları ilə yaşamaq istəmədiklərini bildiriblər.

50-60 yaşdan yuxarı qadınların boşanmasına səbəb isə ailədə normal münasibətlərin olmamasıdır. Xəyanət səbəbilə boşanmağa gələn qadınlar da çox olub. Hətta özünü sığortalamaq məqsədilə, ev və mülklə bağlı boşanan yaşlıların da sayı az deyil.

***Günel CƏLİLOVA***

**Muxtar respublikada fəaliyyət göstərən muzeylər sırasına daha bir muzey əlavə olundu: Milli Dəyərlər Muzeyi. Bu muzeydə 70 il sovet imperiyasının balta çalmağa çalışdığı, lakin xalqın illərlə öz məişətində, şüurunda, ürəyində yaşadıb bəslədiyi milli dəyərlərimiz nümayiş olunur. Əslində muzeyin yaranmasına qədər muxtar respublikada bu istiqamətdə məqsədli şəkildə bir sıra işlər görülmüşdü.**

# Naxçıvanda daha bir ilk - Milli Dəyərlər Muzeyi...



Dövlət tərəfindən həyata keçirilən maraqlı layihələr hamı tərəfindən rəğbətlə qarşılanıb. Bəs nədir o milli dəyər, nələrdir onun nümunələri?

Buraxınız, seyr edəyim,
düşünəyim, oxşayayım,
Şu sevimli üç boyalı, üç
mənalı bayrağı.

1918-ci ildə AXC-nin qaldırdığı üçrəngli bayrağı vəsf edən Cəfər Cabbarlının ürəyində daşıdığı bayraq sevgisini 1991-ci ildə öz milli dəyərləri uğrunda savaşa çıxmış xalq yenidən bərpa etdi. Naxçıvanda ilk dəfə 3 rəngli bayrağın Ulu öndər tərəfindən dalğalandırılması ilə milli dəyərlər də intişar tapdı. İllərin buxovlarından azad oldu sovet imperiyasının məngənəsində sıxılan milli mənliyimiz. Bütün dünyaya Azərbaycanın müstəqilliyini bəyan edən üçrəngli bayrağın kölgəsində qolqanad açdı, sevildi, gənc nəslə aşılandı. Milli dəyər hər bir xalqın milli kimliyinin göstəricidir, mənəvi pasportudur. O mənəvi pasportda xalqın müstəqilliyi var, müstəqilliyini simvolizə edən bayrağı, himni, gerbi var. Doğma dilinə mənsubluğu, mədəniyyətinə, tarixinə sahiblik hissi var. Bu varidatın qorunduğu yerdə torpaq da qorunur, ölkə də inkişaf edir, gənclik gələcəyə milli zəmində qurulmuş möhkəm dayaqlar üzərində addımlayır. Müstəqillik əldə etdikdən sonra ölkəmizdə, eləcə də onun ayrılmaz parçası olan muxtar respublikamızda milli dəyərlərin təbliği, gənc nəslə aşılanması istiqamətində mühüm addımlar atıldı. Bu baxımdan "Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 7 fevral 2009-cu il tarixli sərəncamı milli dəyərlərə qayıdışa, sahiblik hissinə səsləyən mühüm tarixi sənəd olub. Bütün bunlar öz nəticəsini göstərib. Tarixi abidələrə yeni həyat verilib, xalq yaradıcılığı günləri təşkil olunub, milli kökə bağlılığı nümayiş etdirilib. Ağacişləmə, papaqçılıq, dülgərlik, toxuculuq, xalçaçılıq, dəmirçilik, misgərlik, dulusçuluq kimi qədim sənət sahələri qorunub saxlanılıb.

2012-ci ildə muxtar respublikada "Milli dəyərlər ili" çərçivəsində beynəlxalq rəsm, folklor və muğam festivalları, ədəbi tədbirlər, yaradıcılıq təşkilatları üzrə müsabiqələr, ailə dəyərlərinin qorunub saxlanılması ilə bağlı seminarlar keçirildi, milli dəyərlərin əsas daşıyıcısı olan xalq yaradıcılığının müxtəlif sahələri üzrə kurslar təşkil olundu. Aparılan tikinti-quruculuq işlərində milli ornamentlərin tətbiqinə üstünlük verilib, qədim milli musiqi alətlərində ifalara və milli geyimlərimizin təbliğinə diqqət artırılıb. Ötən dövr ərzində "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində milli mətbəx nümunələrimizdən "Plov", "Kətə", həmçinin "Yallı", Yaradıcı əllər", "Xalq yaradıcılığı", "Milli geyimlər" festivallarının keçirilməsi milli dəyərlərimizin daha geniş auditoriya qarşısında təbliğinə xidmət edib. Artıq bir ənənə halını alan bu festivallar turistlərin də maraq dairəsindədir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması haqqında" 2014-cü il 22 avqust tarixli Sərəncamına əsasən Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin istifadəyə verilməsi dövlət atributlarına ehtiramın ən böyük ifadəsi olmaqla yanaşı, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi istiqamətində atılmış mühüm addımlardan biri olub. Bu gün bayraq meydanı müqəddəs and yerinə çevrilib.

2012-ci ildə "Milli dəyərlər ili" nə həsr olunmuş tədbirdə çıxış edən Naxçıvan MR Ali Məclisinin Sədri Vasif Talıbov demişdir: "Biz həyata keçirilən tədbirləri milli dəyərlərin öyrədilməsi və yaşadılması istiqamətində görülən işlərin yekunu yox, başlanğıcı hesab edirik. Bu sahədə görülən işlərlə kifayətlənmək olmaz. Milli dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması hər birimizin mühüm vəzifəsi olmalıdır. Biz öz tarixi dəyərlərimizə sahib çıxmasaq, ona başqaları sahib çıxacaqdır. Xalqımızın gələcəyini düşünürüksə, bu gələcəyi möhkəm təməllər - milli dəyərlər üzərində qurmalıyıq".

Sentyabrın 23-də Naxçıvan şəhərində yeni fəaliyyətə başlayan Milli Dəyərlər Muzeyi də milli dəyərlərin qorunması və gələcək nəsillərə çatdırılması istiqamətində atılan daha mühüm addımlardan biridir.

3 ekspozisiya zalından ibarət muzeydə hər biri özündə məna yükü daşıyan eksponatlar nümayiş etdirilir. Bu eksponatlar özündə hansı dəyərləri yaşadır?

Azərbaycan Respublikasının Dövlət bayrağı, gerbi və Dövlət himninin mətni, milli geyimlərimiz və qədim mətbəx əşyalarımız, xalçalar və milli musiqi alətlərimiz, milli sənətkarlıq nümunələri, muxtar respublikanın tarixi, mədəniyyəti, memarlıq abidələri, adət-ənənələri ilə bağlı çap olunmuş kitab və ensiklopediyalar, turizm potensialının təbliğinə dair bukletlər də daxil olmaqla muzey özündə 236 eksponatı hifz edir.

Yenidənqurmadan sonra Cəmşid Naxçıvanski muzeyi ilə eyni gündə tarixi binada istifadəyə verilən Milli Dəyərlər Muzeyi milli dəyərlərimizə sahiblik hissinin ən gözəl nümunəsidir. Qorunan milli dəyərlərimizin təbliğ olunduğu ünvan - Milli Dəyərlər Muzeyi hər birimizin yolunu gözləyir. Mənəvi sərvət dünyasına övladlarımızla birgə daxil olaq. Gələcəyimiz olan uşaqların bu sərvətdən pay götürəcəyinə əmin olun.

***Ruhiyyə RƏSULOVA***
***Naxçıvan Televiziyasının baş redaktoru***

**Ölkəmizdə hər il minlərlə tələbə ali məktəbləri bitirərək iş axtarışına çıxır. Ali təhsilli gənclərin sayının ilbəil artmasına baxmayaraq, gənc mütəxəssislərin bilik və bacarıqlarının səviyyəsi əmək bazarının və işəgötürənlərin tələblərinə yetərincə cavab vermir. Bu səbəbdən son illər əmək bazarında ciddi dəyişikliklər baş verib.**

# Universitetlərdə və orta ixtisas məktəblərində artıq yükə çevrilmiş ixtisaslar...

***Kamran Əsədov:** "Elektrik mühəndisi, cihazqayırma kimi ixtisasa qəbul edilənlərə əmək bazarında ehtiyac yoxdur, bunlar ölü ixtisaslar sayılır"*

***Aytəkin Kamranqızı:** "Tələbələrin əksəriyyəti hüquqşünas, müəllim, həkim kimi məzun olur. Bu sahələrə tələbat olmadığı üçün, bir sıra peşələr üzrə kadr çatışmazlığı yaranır"*



Bir vaxtlar məşhur olan, hər kəsin oxumağa can atdığı peşələrə bu gün artıq tələbat azalıb. Valideynlər, Sovet dövründə olduğu kimi, indi də övladlarının ya hüquq, ya da tibb fakültəsində oxumasına çalışsalar da, əmək bazarında belə ixtisaslara tələbatın olmaması vəziyyəti gərginləşdirib. Bu gün əmək bazarında tələblə təklif üst-üstə düşmür. Bu da müvafiq peşə sahiblərinin sayının azalması ilə yanaşı, həmin təklifin əcnəbi işçi qüvvəsi ilə əvəz olunmasına gətirib çıxarır.

Nəzərə almaq lazımdır ki, Azərbaycan inkişaf etməkdə olan ölkədir və burada həyatın müxtəlif sahələrində yeni ixtisaslar üzrə kadrlara tələb var. Kadr hazırlığı zamanı mövcud tələblə yanaşı, perspektivdə yeni tələblər də nəzərə alınmalıdır. Əks halda, kadr çatışmazlığı yaranır ki, bu da həmin sahələrdə olan geriliyin aradan qaldırılmasını çətinləşdirir.

Ekspertlərin fikrincə, təhsil müəssisələrində əmək bazarında ehtiyac duyulmayan ixtisasların yerinə tələbat olan sahələr tədris olunmalıdır.

Təhsil sahəsi üzrə ekspert Kamran Əsədov bildirdi ki, Azərbaycanda ali və orta ixtisas təhsili müəssisələrində qəbul aparılan ixtisasların bir çoxu əmək bazarında ehtiyac duyulmayan ixtisaslardır: "Bu gün mövcud olan ixtisasların çoxu 20-30 ildən sonra mövcud olmayacaq. Təəssüflər olsun ki, hələ də müəyyən ixtisaslar üzrə kadrlar hazırlanır, amma həmin kadrlar sonradan iş tapa bilmir. Məsələn, elektrik mühəndisi, cihazqayırma kimi ixtisasa qəbul edilənlərə əmək bazarında ehtiyac yoxdur, bunlar ölü ixtisaslar sayılır. Azərbaycanda ekologiya mühəndisi ixtisası var, amma bu ixtisas üzrə iş yoxdur. Belə olan təqdirdə bu istiqamətlər üzrə kadrların hazırlanmasına nə ehtiyac var?

"Business insider" jurnalı var. Burada istehsalatda və xidmət sektorunda daha çox ehtiyac duyulan kadrlarla bağlı məlumatlar əksini tapır. Bizdə kənd təsərrüfatı üzrə kadrlar hazırlanır, amma kənd təsərrüfatı üzrə menecer hazırlanmır. Bu, gələcəyin ixtisaslarından biridir. Kənd təsərrüfatı üzrə yeni ixtisasların açılması, bu istiqamətlərdə kadrların hazırlanması vacibdir. Kənd təsərrüfatı Azərbaycanda inkişaf edən sahədir və gələcəkdə yetərli kadrlar olmadıqda inkişafı dəstəkləmək, onun davamlılığını təmin etmək mümkün olmayacaq".

K.Əsədovun sözlərinə görə, gələcəkdə ölkəmizdə daha çox tələbat yaranacaq ixtisaslar informasiya texnologiyaları ilə bağlı olacaq: "İnformasiya texnologiyasının inkişafı proqramçılara tələbi artırır və gələcəkdə daha çox artıracaq. İnformasiya texnologiyaları və informasiya təhlükəsizliyi ayrı bir işdir, proqramçılar ayrı bir peşədir. Onun işi proqram yazmaqdır, hansı ki, proqramlar olmadan elektron qurğuların işləməsi mümkün deyil.

Gələcəkdə kompyuter, informasiya texnologiyaları üzrə ixtisas çeşidlərinin sayı artırılmalıdır. Bizdə kompyuter elmləri üzrə kadrlar hazırlayırıq, amma kompyuter sistemlərinin tətbiq edilməsi, təkmilləşdirilməsi üçün kadrlar yoxdur. İnformasiyanın emalı, istehsalı ilə məşğul olacaq kadrlar hazırlanmır.

Bununla yanaşı, kompyuter oyunlarının hazırlanması və dizaynı ixtisası ölkəmizdə yoxdur. Halbuki, bu ixtisaslar bazarı sürətlə böyüyən seqmentlərdəndir. İnformasiya rəhbərliyi, daxili təhlükəsizlik, virtual təhlükəsizlik ixtisasları yoxdur. Nanotexnologiya üzrə kadrların hazırlanması da vacibdir".

Ekspert onu da vurğuladı ki, başqa sahələr üzrə də ixtisasların çeşidinin artırılmasının vacib olduğu qənaətindədir: "Bizdə satış təlimçiləri yoxdur. Menecerlər var, ancaq onların hansı istiqamət üzrə menecer olduğu bilinmir. Azərbaycanda sürücülük məktəbləri var, amma yük maşınının, xüsusi təyinatlı avtomobillərin sürücüsü ixtisası yoxdur. Bu ixtisaslara gələcəkdə tələb bir qədər də artacaq. Azərbaycanda tikinti mühəndisi var, lakin tikinti müfəttişi ixtisası yoxdur.

Hüquqşünas ixtisası var, amma vəkillik ixtisası yoxdur. Bu ixtisas lazımdır. Bütün hüquqşünaslar vəkil olmur. Onun konseptual istiqamətləri var - ailə, cinayət, mülki və s. istiqamətlər üzrə vəkil işləri var. İxtisas seçimlərini artırmaq lazımdır".

K.Əsədov onu da vurğuladı ki, kadr hazırlayan zaman, ilk növbədə, həmin kadrlara əmək bazarında ehtiyac olub-olmadığını bilmək lazımdır: "Bundan sonra həmin ixtisaslar üzrə kadrlar hazırlanmalıdır. Təhsilin məqsədi həyat üçün kadr hazırlamaqdır. Lazımsız ixtisaslar üzrə pul xərcləyib kadr hazırlamağa ehtiyac yoxdur".

Sosioloq Aytəkin Kamranqızı bazarda bu sahədə monitorinqlərin aparılmadığı səbəbindən əmək bazarının tələblərinə uyğun kadr hazırlanmadığından şikayətlən di: "Əmək bazarında çox ciddi problemlər var. Tələbələrin əksəriyyəti hüquqşünas, müəllim, həkim kimi məzun olur. Bu sahələrə tələbat olmadığı üçün, bir sıra peşələr üzrə kadr çatışmazlığı yaranır, gənclər arasında işsizlik artmış olur. Ölkə üçün əhəmiyyət kəsb edən kənd təsərrüfatı, yüksək texnologiyalar və s. kimi ixtisaslara maraq çox zəifdir. Ölkəmizdə tələb olunan peşələrə xaricdən işçi qüvvəsi gətirməyə məcbur oluruq. Nəticədə ali təhsilli məzunlarımız işsiz qalır".

Problemin həlli yollarından danışan mütəxəssis bildirdi ki, ali təhsilin formalaşmasında və ixtisasların təyin olunmasında ölkənin sosial-iqtisadi inkişafının meylləri, o cümlədən, sahibkarlıq subyektlərinin tələbləri nəzərə alınmalıdır: "Bu gün sahibkarlar hansı kadra, ixtisasa ehtiyac duyursa və ya hansı peşələr vacibdirsə, onlar öyrənilməlidir. Ali təhsil müəssisələri ilə iş adamları arasında qarşılıqlı əlaqə olmalı, təcrübə mübadiləsi aparılmalıdır. Əmək bazarında tələbə uyğun olaraq təklif verilməli və ixtisaslı kadr yetişdirilməlidir.

İş elanları saytlarında apardığımız kiçik araşdırma nəticəsində məlum olur ki, özəl şirkətlər və təşkilatların hazırda daha çox İKT sahəsində bacarığı olan gənclərə, satış təmsilçilərinə, texniklərə ehtiyacı var. İkinci ən çox axtarılan peşə sahibləri isə xidmət sahəsində çalışanlardır. Bu sahədə ofisiantdan tutmuş, aşpaza, mühafizəçiyə, sürücüyə qədər müxtəlif peşə sahiblərinə tələbat böyükdür".

***Günel CƏLİLOVA***

№ 177 (4075) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

4 OKTYABR 2019-cu il

www.baki-xeber.com

## "Azercell"in yeni "Bookmate plus" paketi ilə dünya ədəbiyyatı sizin smartfonunuzda!

**Fəaliyyəti boyunca bir sıra yeniliklərə imza atan "Azercell Telekom" MMC mütaliəni hər kəs üçün daha da əlçatan edərək, Azərbaycan, türk, ingilis, rus və digər dillərdə dünya ədəbiyyatını oxumaq və audio versiyasını dinləmək üçün sərhədsiz imkanlar yaradır.**




Bu dəfə ölkənin rəqəmsal həllər təqdim edən lider mobil operatoru "Azercell", qiraət həvəskarlarının istifadəsinə yeni "Bookmate Plus" paketini təqdim edir. "Azercell" abunəçilərə bir paket çərçivəsində məkandan və istifadə olunan cihazdan asılı olmayaraq, hətta oflayn rejimdə belə 1 milyondan çox müxtəlif janrlarda elektron və audio kitabları özündə cəmləşdirən zəngin elektron kitabxanadan istifadə etmə imkanı yaradır.

"Bookmate Plus" paketini aktiv etmək qaydası çox sadədir: Həm iOS, həm də Android əməliyyat sistemlərində çalışan "Bookmate" tətbiqini App Store və ya Play Store-dan yüklədikdən sonra, xidmətə günlük qoşulmaq üçün smartfonun ekranında *511#yes, aylıq aktiv etmək üçün isə *533# yes komandasının yığılması kifayətdir. "Azercell"in "Bookmate Plus" paketi elektron kitabxananın xəzinəsini abunəçilər üçün daha da əlçatan edərək, günlük paket çərçivəsində elektron ve audio kitablardan istifadə üçün 50%-dən çox endirim təqdim edir. Bununla yanaşı "Azercell" "Bookmate Plus"dan ilk dəfə istifadə edən abunəçilərə paketdən 7 günlük pulsuz istifadə üçün də müstəsna fürsət yaradır. Daim yenilənən rəqəmsal kitabxana haqqında ətraflı məlumat üçün https://www.azercell.com/az/personal/services/partner_services/books/ səhifəsinə daxil olun.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

## Elan

Şəki rayonu, Baş Göynük kənd sakini Hüseynov Akif Nöbər oğlunun adına verilmiş A N:052824, A N:050963, AN:064891, A N:052823, A N: 064877, A N:047759 saylı torpaq sahəsinin planı və ölçüsü itdiyi üçün etibarsız sayılır.

---

Əliyeva Ağcagül Valeh qızının adına, Binəqədi rayonu, Novxanı ərazisində yerləşən 999 c saylı bağ sahəsinə verilmiş 35681 saylı müqavilə itdiyi üçün etibarsız sayılır.

---

Arzumanov Şahbaba İmaməddin oğluna Müdafiə Nazirliyi tərəfindən verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

---

İsmayılova Aytac Vadim qızına Azərbaycan Dövlət Pedaqoji Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

---

Həmidova Fidan Vahab qızına İqtisad Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

---

İsmayılov Ziya Ələkbər oğluna Müdafiə Nazirliyi tərəfindən verilmiş 000748 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

Ağayev Namiq Muxtar oğluna məxsus müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

"Az FP Co LTD" MMC-yə məxsus (Abşeron rayonu, Hökməli qəsəbəsi) çıxarış (seriya RX N0163179) və texniki pasport itdiyi üçün etibarsız sayılır.

## Yer kürəsinin yaxınlığında qara dəliyin izləri aşkar edilib

**Qəbul edilmiş nəzəriyyəyə əsasən hətta ulduzları belə udan qara dəliklər bir qayda olaraq Günəş sistemindən çox uzaqlarda yerləşirlər. Lakin qəbul olunmuş bu nəzəriyyə yaxın zamanda dəyişə bilər.**



Belə ki, ABŞ-dan və İngiltərədən olan fiziklərin fikirlərincə bir neçə müddət bundan öncə astronomlar tərəfindən kəşf edilmiş X planeti əslində digər bir kosmik obyekt ola bilər. Söhbət, qara dəlikdən gedir. Kəşf edilmiş X planetinin ölçüsü böyük olmasa da? onun bizim qalaktikamıza təsiri artıq hiss olunandır. Bu barədə Arxiv.org saytı xəbər verib. "Technote.az" bildirir ki, bu cür nəzəriyyə bir sıra müşahidələrə əsaslanır. Son bir neçə il ərzində alimlər Günəş ətrafında dövr edən transneptun obyektlərin orbitlərində qəribə anomaliyalar müşahidə ediblər. Həmin obyektlər ilə Günəş arasındakı məsafə Neptun ilə Günəş arasındakı məsafədən daha çoxdur. Hələ bir neçə müddət bundan öncə müşahidə edilmiş anomaliyalar böyük ölçülü planetin qravitasiya gücü ilə əlaqələndirilirdilər. OGLE proqramı çərçivsəində alimlər 6 dəfə qravitasiya linzası hadisəsini müşahidə ediblər. Bu hadisə zamanı kosmik obyektin qravitasiya gücü sayəsində işıq təhrif (əyilmə) olunur. Bu cür effektin alınmasının səbəbi həm böyük ölçüyə sahib planetlər, həm də ilkin qara dəliklər ola bilər. Yüksək sıxlıqlı materiyadan yaranan ilkin qara dəlikləri alimlər kainatın genişlənməsi ilə əlaqələndirirlər. Günəş sistemi məhz bu cür qara dəliyi öz tabeliyinə götürə bilər. Astronomların fikirlərinə əsasən onun mövcudluğu isə sirli X planetinin müşahidəsinin mümkünsüzlüyünü izah edə bilər. Belə ki, boulinq şarından böyük olmayan qara dəliyin müşahidə olunmasında standart üsullar çalışmır. Bu nəzəriyyənin yoxlanılması üçün tədqiqatçılar sözügedən obyektin şüalanmasını qeydiyyata almağı planlaşdırırlar. Belə ki, həmin obyekt qara materiyanı udan zaman şüalanma buraxmalıdır.

---

## Süni zəka insan səsini 5 dəqiqəyə «koyalamağı» öyrənib

**Böyük texnoloji şirkətlər kompüter səsinin təbii səslənməsinə böyük diqqət ayırırlar. Bu yolda "IBM" şirkəti süni zəka texnologiyası əsasında yaradılmış yeni alqoritmlə növbəti uğura imza atıb. Belə ki, şirkətin yaratdığı yeni alqoritm hansısa şəxsin səsi ilə tanış olduqdan 5 dəqiqə sonra həmin şəxsin səsi ilə danışa bilir. Bu barədə Venturebeat saytı xəbər verib.**

"Technote.az" bildirir ki, şirkətin verdiyi məlumata əasən bu yeni alqoritm real zaman ərzində dialoqlar qura, müxtəlif növ danışıq və səs tembri tərzinə uyğunlaşa bilir. Şirkət mütəxəssisləri qeyd ediblər ki, modul arxitekturası əsasında neyron nitqinin sintez olunması sayəsində onlar təbii səslənən kompüter səsi yarada biliblər. Sözügedən sistem 3 hissədən ibarətdir: Prosodiya (nitqin vurğu, intonasiya, intensivlik, temp və tembr kimi fonetik vahidləri çoxluğudur) funksiyasının prediktoru (proqnozlaşdırma üsulu), akustik özəlliklərin prediktoru və neyron vokoder (voice coder - nitq sintezi cihazı). Bu 3 komponent birlikdə danışan şəxsin danışıq tərzini təyin etməkdə yardımçı olur və akustik təhrifləri nəzərə almaqla nitqin təqdim etmə enerjisini və yüksəkliyini ayarlayır. Şirkətin verdiyi məlumata əsasən, hansısa şəxsin səsi ilə danışmaq üçün bu alqoritmə təyin edilmiş şəxsin səsi ilə 5 dəqiqəlik tanışlıq bəs edir. Yeni səs sintezi tenxologiyasının səslənmə nümunələri ilə "IBM Watson" saytında tanış olmaq olar.





**Qoç** - Günün ilk yarısı darıxdırıcı təsir bağışlaya bilər. Situasiyanın zahiri təzahürlərinə aldanmayın. Rutin işlərlə məşğul olun. Yasaqları pozanda, qadağalara məhəl qoymayanda sonucları və fəsadları düşünün.



**Buğa** - Günün ilk yarısında sizi çox iş gözləyir. İşdə və ailədə "lokomotiv" rolunu oynamalı olacaqsınız. Yeni hədəf, fərqli məqsəd əla stimuldur. Köhnə planlardan birini reallaşdırmaq üçün əlverişli zamandır.



**Əkizlər** - Asan gəlir etmək ideyalarını unudun. İşlər artır, fəaliyyətdə gərginlik motivləri çoxalır. İdeyaların reallaşdırılması üçün maliyyə dəstəyi gərəkdir. Ruhdan düşməyin. Maneələr və sədlər sizi passivləşdirməməlidir.



**Xərçəng** - Adi günlərdən biridir. Heç bir ekstraordinar hadisə baş verməyəcək. Ev işləri ilə məşğul olmaq mümkündür. Alış-verişdə bədxərclik etməyin. Qəfil təklif olarsa, gəlir istisna deyilsə, razılaşın.



**Şir** - Yaxın ətrafınızdakı insanların maraqlarını nəzərə alın. Aqressiv və eqoist olmayın. Tərəfdaşlarla əlaqələrdə müvazinəti pozmayın. Qarşılıqlı güzəştlərə hazır olun. Bəzi imkanlara və imtiyazlara görə mübarizə aparmanız gərəkdir.



**Qız** - Günün ilk yarısını qarşınıza qoyduğunuz məqsədə çatmaq üçün fayda ilə keçirə bilərsiniz. Konkret material nəticəyə yönəlmiş iş xüsusilə yaxşı sonuclar verəcək. Abstrakt mənfəətlə maraqlanmayın.



**Tərəzi** - Haqqınızda deyilənlərlə yanaşı, situasiya ilə bağlı dəyərləndirmələrin yer aldığı sözlərə qulaq asın. Əsla gözləmədiyiniz mənbədən xəbər alacaqsınız. Şayiələr sürətlə yayılacaq. Gərəkli məlumatı əldə etmək çətindir.



**Əqrəb** - Başqalarının maraqları və mənafeləri arasında qala bilərsiniz. Ailədə və ya işdəki situasiyanın girovuna çevrilməyin. Hadisələrə təsir imkanlarına malik insan sizə maneələr yaratmağa çalışacaq.



**Oxatan** - Rutin məsələlələrin çoxluğu sizi əsas məqsəddən yayındırmamalıdır. Maddi məqamlar, xidməti öhdəliklər çox vaxt aparacaq. Yaxın dostlardan biri və ya qohumun yardıma ehtiyacı ola bilər.



**Oğlaq** - Maliyyə məsələlərində təmkinli davranın, emosiyalara uyaraq düşünülməmiş qərarlar verməyin. Mənasız eksperimentlər aparmayın, bütün qüvvənizi və diqqətinizi real məqsədlərə yönəldin.



**Dolça** - Məqsədlərinizə çatmaq üçün xeyli çətinlikləri dəf etməli olacaqsınız. Sədlər və maneələrin sayı artacaq. Texniki, xidməti və məişət problemlərinin sayı artacaq. İradlar çoxalacaq, tələbat güclənəcək.



**Balıqlar** - İkinci dərəcəli işlərə diqqətiniz yayılmasın. Cari işlərlə məşğul olun, rutin məsələlərdən usanmayın. İşlər nə qədər artırsa, ödəniş və gəlirlərlə bağlı problemlər sizi daha çox narahat edəcək.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Oğru ilə birlikdə tutuquşusu da həbs olundu

**Hollandiyanın Utrext şəhərində polis tutuquşusu ilə birlikdə bir oğrunu həbs edib. "Ölkə.az" bildirir ki, bu barədə foto şöbənin "İnstaqram" hesabında paylaşılıb.**



Polis 26 sentyabr mağazada oğurluqla bağlı məlumat aldığını bildirib. Oğru yerindəcə həbs edilib. Qartçinin çiynində tutuquşusu olub. Oğru və onun ləlәkli dostu təcridxanaya aparılıb. Polis quş üçün nə qəfəs, nə də boş bir otaq olmadığını etiraf edib. Onlar tutuquşunun yiyəsi ilə məsləhətləşərək, quşu sahibinin yanında qoyublar. Onun üçün su və ağ çörək gətirdilər.

*Hazırladı: Ramil QULİYEV*

**Baş redaktor:** *Aydın Quliyev*

**Baş redaktorun müavini:** *Tahir Tağıyev*

**Redaksiyanın ünvanı:** *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*
**Tel-faks:** *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**
Qəzet həftədə 5 dəfə çıxır.
(Bazar və bazar ertəsindən başqa).
«BZ»-də çap olunur.
*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.